# Dünya Səhiyyə Şəbəkəsi meymunçiçəyini pandemiya elan edib



**Dünya Səhiyyə Şəbəkəsi meymunçiçəyini pandemiya elan edib.**

Bu barədə təşkilatın saytında yayımlanmış press-relizdə bildirilib.

Qeyd olunub ki, xəstəlik artıq 58 ölkəyə yayılıb və ümumilikdə 3 417 yoluxma halı təsdiqlənib. Əlavə olunub ki, müxtəlif qitələrdə yoluxanların sayı hər həftə daha da artır və ölkələr xəstəliklə mübarizə məqsədilə qlobal əməkdaşlıq etmədiyi təqdirdə virus yayılmağa davam edəcək. Press-relizdə meymunçiçəyi virusunun çiçək xəstəliyindən daha az ölüm nisbətinə malik olduğu, lakin yayılmanın qarşısının alınması üçün müvafiq praktiki tədbirlər görülmədiyi təqdirdə milyonlarla insanın ölümünə, kor və ya əlil qalmasına səbəb ola biləcəyi qeyd olunub.

# İstanbulda taxıl koridoru üçün əməliyyat mərkəzi yaradıla bilər



**İstanbulda taxıl koridoru üçün əməliyyat mərkəzinin yaradılması ilə bağlı fikir birliyi var.**

APA-nın İstanbul müxbiri xəbər verir ki, bu barədə Türkiyənin milli müdafiə naziri Hulusi Akar britaniyalı həmkarı Ben Uolles ilə görüşdən sonra jurnalistlərə açıqlamasında deyib.

O, Ukrayna tərəfi ilə də taxıl koridoruna dair danışıqların aparılacağını bildirib.


❒ № 110 (5632), 2022-ci il

Qiymət 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 24 iyun 2022-ci il (cümə)





# Taksiyə minənlər azalıb

## Ölkədə avtobus istifadəçilərinin sayı kəskin artıb

**Bu ilin yanvar-may aylarında Azərbaycanda avtobuslarla 510 905,3 min sərnişin daşınıb ki, bu da illik müqayisədə 25,2% çoxdur.**

Dövlət Statistika Komitəsindən "APA-Economics"ə verilən məlumata görə, hesabat dövründə minik taksilərindən 29 471,1 min nəfər istifadə edib ki, bu da illik müqayisədə 21,4% azdır.

*Xatırladaq ki, ötən il Azərbaycanda avtobuslarla 1 032 999,8 min sərnişin daşınıb ki, bu da illik müqayisədə 2,1% azdır. Minik taksilərindən isə 86 944 min nəfər istifadə edib ki, bu da illik müqayisədə 93,5% çoxdur.*




# Əhaliyə şad xəbər

## Pensiya və müavinətlər artırılacaq

**Milli Məclisin iclasında müzakirə edilən məsələlərdən biri də Dövlət Sosial Müdafiə Fondunun gəlir və xərclərinin artırılması məsələsi olub. Artan büdcədən pensiya və müavinətlər də öz payını alacaq. Yəni artımın olacağı gözlənir...**

Xəzər TV xəbər verir ki, pensiya və müavinətlər artırıla bilər. Çünki Dövlət Sosial Müdafiə Fondunun gəlir və xərcləri artırılır..

Bunu "Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsi haqqında" qanuna dəyişikliyi şərh edən Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Musa Quliyev deyib. Millət vəkili bildirib ki, büdcədəki artım öncə pensiyalara öz təsirini göstərəcək.

Millət vəkili uşağın anadan olmasına görə müavinətin məbləğinin artırılmasına da diqqət çəkib.

Təklif olunan dəyişikliklər nəzərə alınaraq, İşsizlikdən Sığorta Fondunun 2022-ci il büdcəsinin gəlir və xərclərinin də 1 milyon manat artırılması nəzərdə tutulur. Bu artım əsasən ictimai işləri yerinə yetirənlərə yönəldiləcək.

# Britaniya şirkəti ilə müqavilə imzalanıb

## Minaların təmizlənməsində dronlardan istifadə olunacaq



**İşğaldan azad olunmuş ərazilərdə minatəmizləmə əməliyyatı vaxtı havadan tədqiqat üçün Britaniyanın "RPS Energy Ltd." şirkəti ilə müqavilə imzalanıb.**

APA xəbər verir ki, bunu ANAMA sədri Vüqar Süleymanov deyib.

O bildirib ki, tədqiqatçılar hazırda dronlarla və müxtəlif cihazlarla əraziləri tədqiq edir: "Tədqiqatların nəticəsi süni intellekt vasitəsilə emal olunur. Bu da minatəmizləyənlərin işinin asanlaşdırılması üçün xüsusi önəm daşıyır".

*Sədr qeyd edib ki, 18 ədəd minatəmizləyən maşın alınıb və azad olunmuş ərazilərdə təmizləmə işlərinə cəlb olunub.*

# Lavrov Bakıya gəlib



**Prezident İlham Əliyev:**
"Sülh müqaviləsi üzərində işə başlamaq barədə təklifimiz hələlik cavabsız qalır"

**Sergey Lavrov:**
"Ermənistan tərəfi, baş nazir Paşinyan bu mövzuda danışıqlar aparmağa hazırdır"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edib.**

**Azərtac xəbər verir ki, görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

- Hörmətli Sergey Viktoroviç, sizi yenidən görməyimə çox şadam. Xoş gəlmisiniz. Elə sizin səfəriniz ərəfəsində həm sizinlə, həm də Rusiya Federasiyasının Prezidenti ilə əvvəlki görüşlərimizi xatırlamışam. Bu ilin əvvəlində Moskvada Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamənin imzalanması bizim münasibətlərə, münasibətlərimizin yeni mərhələsinə yaxşı start, belə müsbət ahəng, dinamika verdi. Hesab edirəm ki, bizim münasibətlərimizin gələcək inkişafı üçün bu əsas sənəd çoxillik, çox səmərəli əməkdaşlığın gözəl yekunudur.

(səh.2)

# Meyvə-tərəvəz dəllalların əlinə keçdiyinə görə bahalaşıb

## "Kənddən Şəhərə" yarmarkalarının keçirilməsində əsas məqsəd paytaxtda məhsulların bolluğunu yaratmaqdır



**Kənd Təsərrüfatı Nazirliyi iyunun 25-26-da Bakıda və Abşeronda "Kənddən Şəhərə" yarmarkaları təşkil edəcək. Yarmarkalar üç fərqli ünvanda keçiriləcək.**

Məqsəd yerli fermer təsərrüfatları üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini təbii, mövsümi və sağlam kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir. Qeyd edək ki, "Kənddən-şəhərə" yarmarkaları artıq ənənəvi hal alıb.

(səh.6)

# Ukrayna Avropa İttifaqına üzvlüyünə namizəd statusu alıb

## Zelenski: "Tarixi andır, dəstəyə görə minnətdaram"



**Ukrayna Prezidenti Volodimir Zelenski ölkəsinə namizəd statusu verilməsi münasibətilə Avropa İttifaqı (Aİ) liderlərinə təşəkkür edib.**

APA-nın xəbərinə görə, Zelenski "Twitter" hesabındakı paylaşımında qərarın Ukrayna üçün tarixi əhəmiyyət daşıdığını vurğulayıb.

"Aİ liderlərinin Aİ Şurasında Ukraynaya namizəd statusu vermək qərarını səmimi şəkildə təqdir edirəm. Bu, Ukrayna-Avropa İttifaqı əlaqələrində unikal və tarixi andır. Şarl Mişelə, Ursula fon der Lyayenə və Aİ liderlərinə dəstəyə görə minnətdaram. Ukraynanın gələcəyi Aİ daxilindədir", - deyə Zelenski bildirib.

# Vəfat edən olmayıb

## Daha 26 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 26 yeni yoluxma faktı qeydə alınıb, 10 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan APA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

*Azərbaycanda indiyədək ümumilikdə 793 089 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 783 206 nəfər müalicə olunaraq sağalıb, 9 716 nəfər vəfat edib, aktiv xəstə sayı 167 nəfərdir. Ölkədə son sutka ərzində 2 222, hazırkı dövrədək isə 6 947 820 test aparılıb.*

# Avropada təbii qaz 8 faiz bahalaşıb



**Avropa birjalarında təbii qazın qiyməti min kubmetr üçün 1 500 dollara yaxınlaşıb.**

Trend-in məlumatına görə, Niderlandın TTF habında təbii qazın iyul fyuçersləri 1 495,53 dollar ətrafında alınıb-satılır.

Gün ərzində qiymətlər 8 faiz artıb.

*Qeyd edək ki, Rusiyanın "Qazprom" şirkəti bir müddət "Şimal axını" boru xətti ilə qaz tədarükünü azaltmalı olduğunu elan etmişdi.*

*Xatırladaq ki, martın 7-də Avropada təbii qaz qiymətləri tarixi rekord vuraraq 3 900 dollara çatmışdı.*

# "Müharibə tezliklə bitəcək"



Mehman Əliyev: "Artıq Rusiya Ukrayna ilə bağlı bütün böyük hədəflərini kənara qoyub"

(səh.4)

# "Özbəklərin dili bizə çox yaxındır"



Firudin Cəlilov: "Ona görə də bir-birimizi rahat başa düşürük"

(səh.4)

# Lavrov Bakıya gəlib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edib.**

**Prezident İlham Əliyev:** "Sülh müqaviləsi üzərində işə başlamaq barədə təklifimiz hələlik cavabsız qalır"

**Sergey Lavrov:** "Ermənistan tərəfi, baş nazir Paşinyan bu mövzuda danışıqlar aparmağa hazırdır"

**Azərtac xəbər verir ki, görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

- Hörmətli Sergey Viktoroviç, sizi yenidən görməyimə çox şadam. Xoş gəlmisiniz. Elə sizin səfəriniz ərəfəsində həm sizinlə, həm də Rusiya Federasiyasının Prezidenti ilə əvvəlki görüşlərimizi xatırlamışam. Bu ilin əvvəlində Moskvada Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamənin imzalanması bizim münasibətlərə, münasibətlərimizin yeni mərhələsinə yaxşı start, belə müsbət ahəng, dinamika verdi. Hesab edirəm ki, bizim münasibətlərimizin gələcək inkişafı üçün bu əsas sənəd çoxillik, çox səmərəli əməkdaşlığın gözəl yekunudur. Bəyannamənin müddəalarının implementasiyası çərçivəsində artıq xeyli iş görülüb. Əminəm ki, sizin səfəriniz çərçivəsində bu istiqamətdə yeni addımlar atılacaq. Əlamətdar haldır ki, diplomatik münasibətlərin yaradılmasının 30-cu ilində biz görülmüş bütün işlərə müəyyən mənada yekun vurduq və dostluq, mehriban qonşuluq münasibətlərinin inkişafının sonrakı istiqamətlərini müəyyən etdik.

Bizim münasibətlər haqqında çox danışmaq olar. Sizinlə bu mövzuda dəfələrlə fikir mübadiləsi aparmışıq. Siyasi münasibətlərin, ali səviyyədə daimi dialoqun, bu il yaxşı dinamika nümayiş etdirən ticari-iqtisadi əlaqələrin, nəqliyyat, energetika sahələrində, təbii ki, humanitar sahədə əməkdaşlığın inkişafından məmnun olduğumu bir daha bildirmək istərdim. Yəni, bizdə sıx qarşılıqlı fəaliyyətin olmadığı sahələri göstərmək daha asandır. Əlbəttə, Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə bizim ikitərəfli münasibətlərdə çox mühüm addımdır və artıq deyim kimi o, bizim əlaqələrimizin inkişaf yollarını müəyyən edəcək.

Bu gün, əlbəttə, regionda vəziyyət, münaqişədən sonrakı vəziyyət, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesi barədə danışacağıq. Siz bizim mövqeyimizi bilirsiniz. Bu mövqe regionda uzunmüddətli sülhün bərqərar olmasına yönəlib. Əminəm ki, göstərdiyimiz səylər Ermənistan tərəfindən də müsbət qəbul ediləcək və çoxillik qarşıdurmaya son qoyulacaq. Sülh müqaviləsi üzərində işə başlamaq barədə bizim təklifimiz hələlik cavabsız qalır, lakin biz hələ ümid edirik ki, bu təklif müsbət qəbul ediləcək.

Müsbət məqamlar arasında Rusiya, Azərbaycan və Ermənistanın baş nazirlərinin müavinlərinin sədrliyi ilə üçtərəfli işçi qrupun işinin intensivləşməsini qeyd etmək istərdim. Lap yaxın vaxtlarda Sankt-Peterburqda yeni görüş keçirilib. Ümid edirik ki, 2020-ci il noyabr Bəyannaməsinin implementasiyası məqsədilə məhz kommunikasiyaların açılması, Azərbaycan yüklərinin və vətəndaşlarının Naxçıvan Muxtar Respublikasına maneəsiz çatdırılmasının təmin edilməsi kontekstində də praktiki addımlar atılacaq. Bu, Ermənistan tərəfinin hüquqi öhdəliyidir. Lakin təəssüf ki, İkinci Qarabağ müharibəsinin başa çatmasından ilyarımdan çox keçməsinə baxmayaraq Bəyannamənin həmin bəndi indiyə qədər yerinə yetirilməyib. Düşünürəm ki, bütövlükdə vəziyyətin normallaşması üçün bizim konsepsiya çərçivəsində çox praktiki addımlar atmaq mümkün olacaq. Əlbəttə, Qafqazda möhkəm sülhün bərqərar olması işində Rusiya Federasiyasının fəal səylərinə də ümid bəsləyirik.

Bir daha xoş gəlmisiniz. Vaxtınızı xoş keçirməyi arzu edirəm.

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov çıxış edərək dedi:**

- Çox sağ olun, hörmətli İlham Heydər oğlu.

İlk növbədə, Sizə Vladimir Putinin ən səmimi salamlarını və ən xoş arzularını çatdırmaq istəyirəm. O da Sizin səfərinizin yekunlarını və ikitərəfli münasibətlərimizin bütün aspektlərini, regional və beynəlxalq gündəliyə dair etimada əsaslanan söhbətlərimizi çox yüksək qiymətləndirir. Əlbəttə, səfərin əsas yekunu qəbul edilmiş sənəd - Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə oldu. Bütövlükdə, həmin sənəd bizim münasibətlərimizin yeni keyfiyyətini, bütün əvvəlki illər ərzində toplanmış müsbət təcrübəni təsbit etdi. Biz iki Prezidentin bu Bəyannaməni icra etmək, onu sektoral şəkildə həyata keçirmək, digər razılaşmaları artıq praktiki səviyyədə reallaşdırmaq barədə tapşırıqlarını yerinə yetirmək əzmindəyik.

Baş nazirlərin müavinləri səviyyəsində hökumətlərarası komissiya fəal işləyir. Sizin dediyiniz kimi, keçən il əmtəə dövriyyəsi rekord səviyyədə - təqribən 3,5 milyard dollar olub. Bu da son hədd deyil, həm hökumətlərimiz, həm də regionlar səviyyəsində yeni planlar var. 70-dən çox region Azərbaycanla əməkdaşlıqda iştirak edir. Mənə dedilər ki, təkcə bu il ərzində Udmurtiya, Başqırdıstan, Perm diyarı və əlbəttə, Azərbaycanla xüsusi münasibətləri olan Həştərxan vilayətinin nümayəndə heyətləri Sizin ölkəyə səfər ediblər.

Diplomatik münasibətlərin yaradılmasının 30-cu ilində də sanballı tədbirlər proqramı həyata keçirilir. İyirmidən çox müxtəlif tədbir planlaşdırılır, onların bir qismi artıq təşkil edilib, qalanları ilin sonunadək keçiriləcək. Bu tədbirlər bizim vətəndaşlar tərəfindən yaxşı qarşılanır. Bu, xalqlarımızın qarşılıqlı olaraq bir-birinə can atmasını, mədəniyyətlərimizin, tarixi yaddaşımızın ümumiliyini vurğulayır. Əlbəttə, biz Azərbaycanda rus dilinə göstərilən diqqəti qiymətləndiririk, Siz də Prezident Putin ilə bu barədə danışmısınız.

Regional problemlərə gəldikdə, biz üç lider tərəfindən 2020-ci ilin noyabrında, 2021-ci ilin yanvarında və noyabrında imzalanmış üç sənədin reallaşmasına hər vasitə ilə kömək etməyə hazırıq. Bizim dəyərləndirməmizə görə, kommunikasiyaların açılması üzrə üçtərəfli işçi qrupunun fəaliyyətində müəyyən irəliləyiş var. Razılaşdırılmalı məsələləri biz Ermənistan tərəfi ilə müzakirə edirik. Mənə belə gəlir ki, avtomobillərin maksimum komfort şəkildə hərəkətinə heç bir süni maneə yaradılmaması üçün bu işin təşkili məsələsini necə həll etmək barədə ümumi fikir formalaşır. Rusiya nəticə əldə olunana qədər bu işə kömək edəcək. Ümidvaram ki, bu, tezliklə olacaq. Biz həm də başqa razılaşmalara uyğun olaraq Azərbaycanda və Ermənistanda sərhədlərin delimitasiyası və demarkasiyası üçün yaradılmış iki komissiyanın xətti üzrə işə məsləhət xidmətləri göstərməyə də hazırıq. Bu barədə konkret təkliflər var. Onları Sizinlə müzakirə etməyə şad olaram.

Siz münasibətlərin normallaşdırılmasını, sülh müqaviləsini, gələcək müqavilənin sizin tərəfinizdən təqdim olunmuş müddəalarını xatırlatdınız. Yeri gəlmişkən, biz eşitmişik, Ermənistan tərəfi, baş nazir Paşinyan bu mövzuda danışıqlar aparmağa hazırdır. Biz burada da Azərbaycanın və Ermənistanın razılığı ilə kömək göstərməyə hazırıq. Əlbəttə, Azərbaycan və Rusiyanın iştirak etdiyi digər beynəlxalq forumlar - həm BMT, həm ATƏT, həm də "Xəzər beşliyi" - bütün bu məkanlar, necə deyərlər, artıq xarici konturda bizim qarşılıqlı fəaliyyətimizi inkişaf etdirməyə imkan verir. Düz bir həftədən sonra Aşqabadda "Xəzər beşliyi"nin növbəti sammiti keçiriləcək. Biz də buna fəal hazırlaşırıq. Həmkarım və dostum Ceyhun Əziz oğlu ilə liderlərin bəyanməsi üçün təklif edə biləcəyimiz yekunları müzakirə etmişik.

Dəvətə və ənənəvi qonaqpərvərliyə görə bir daha çox sağ olun. Sağ olun.

# Prezident İlham Əliyev Rumıniya nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın həmsədri, Rumıniyanın energetika naziri Virgil-Daniel Popeskunu, kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Adrian-İonuts Kesnoyunu və Rumıniya Prezidentinin strateji layihələr üzrə xüsusi nümayəndəsi Ana Birçalı qəbul edib.**

Görüşdə Azərbaycan ilə Rumıniya arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı. Bir çox sahələrdə, xüsusilə enerji, kənd təsərrüfatı sferalarında hərtərəfli əməkdaşlıq, enerji təchizatı, ərzaq təhlükəsizliyi, kənd təsərrüfatında yeni texnologiyaların və elektron sistemlərin tətbiqi ilə bağlı təcrübə mübadiləsi, gələcəkdə bir çox iqtisadi layihələrin icrasına dair məsələlər müzakirə olundu.

Söhbət zamanı hökumətlərarası komissiyanın iclasının keçiriləcəyi qeyd edildi və komissiyanın fəaliyyəti barədə fikir mübadiləsi aparıldı.

## Azərbaycanla Gürcüstan arasında təhsil sahəsi üzrə Saziş təsdiqləndi



**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Gürcüstanın Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Fərman imzalayıb.**

Fərmanla 2022-ci il fevralın 21-də Tbilisi şəhərində imzalanmış "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Gürcüstanın Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilir.

Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin edəcək.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Gürcüstan Hökumətinə bildiriş göndərəcək.

# Türkiyə və Britaniyanın müdafiə nazirləri görüşüb



**Türkiyənin milli müdafiə naziri Hulusi Akar Ankarada Böyük Britaniyanın müdafiə naziri Ben Uolleslə görüşüb.**

APA-nın Türkiyənin Milli Müdafiə Nazirliyinin saytına istinadən xəbərinə görə, görüşdə ikitərəfli əlaqələr, regional məsələlər, o cümlədən Rusiya-Ukrayna müharibəsi müzakirə edilib.

Hulusi Akar Türkiyə-Britaniya münasibətlərinin strateji xarakter daşıdığını deyib.

Terrorla, xüsusilə PKK/YPG-İŞİD və FETÖ ilə mübarizədə əməkdaşlığın əhəmiyyəti ifadə edilib.

Ukraynanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyinə verilən dəstəklə bölgədə sülh və sabitliyin bərpası üçün tezliklə atəşkəs elan edilməli olduğu qeyd edilib.

Eyni zamanda, taxıl probleminin həlli istiqamətində aparılan işlərin əlaqələndirilmiş şəkildə davam etdirilməsi barədə məlumat verilib.

Görüşdə hərbi təlim sahəsində əməkdaşlıq fəaliyyətinin davam etdirilməsi ilə bağlı razılıq ifadə olunub.

# BMT-nin Komitəsinə yenidən azərbaycanlı sədr müavini seçilib



**BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması üzrə Komitəsinin (CEDAW) azərbaycanlı sədr müavini yenidən Elgün Səfərov seçilib.**

"Report"un yerli bürosu xəbər verir ki, Azərbaycanın beynəlxalq hüquq üzrə eksperti, hüquq üzrə fəlsəfə doktoru E.Səfərov 2023-2026-cı illər ərzində BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitəsinin 22-ci sessiyasında üzv seçilib.

Qeyd edək ki, E.Səfərov 1982-ci ildə anadan olub.

O, 20 ilə yaxın insan hüquq və azadlıqlarının təmin edilməsi, beynəlxalq hüquq, beynəlxalq sülhün və təhlükəsizliyin qorunması, beynəlxalq humanitar hüquq, qadın və uşaq hüquqlarının müdafiəsi və digər sahələr üzrə BMT-də, ATƏT-də, İslam Əməkdaşlıq Təşkilatında və digər beynəlxalq təşkilatlarda ölkəni təmsil edir.

Ekspert uzun illər ərzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Avropa Şurasının Gender bərabərliyi Komissiyasının (2007-2018-ci illər) fəaliyyətində iştirak edib. E.Səfərov Bakı Dövlət Universitetində və Dövlət Gömrük Akademiyasında beynəlxalq hüquq, ailə hüququ, beynəlxalq humanitar hüquq və digər fənnləri tədris edib. Ekspertin ingilis, rus və azərbaycan dilində 50-dən çox elmi araşdırma və tədqiqatları çap edilib.

## Jurnalist vəsiqəsinin və Media Reyestri Şəhadətnaməsinin formasına dair təkliflər verilib



**Media Reyestrinin aparılması qaydaları və jurnalist vəsiqəsi formasının layihələri Nazirlər Kabinetinə təqdim olunub.**

Bunu "Report"un sorğusuna cavab olaraq MEDİA-nın Kommunikasiya şöbəsinin müdiri - mətbuat katibi Səidə Şəfiyeva bildirib.

O xatırladıb ki, "Media haqqında" Azərbaycan Respublikasının Qanunu 2022-ci il 8 fevral tarixində cənab Prezident tərəfindən təsdiq edilib və müvafiq qanunun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı imzalanıb. Fərmandan irəli gələrək Nazirlər Kabineti 2022-ci il 24 fevral tarixində sərəncam imzalayıb və həmin sərəncamla da Medianın İnkişafı Agentliyinə həm Media Reyestrinin aparılması qaydalarının layihəsinin, həm də jurnalist vəsiqəsi və Media Reyestri Şəhadətnaməsinin formasının hazırlanması ilə bağlı tapşırıq verilib:

"Müvafiq tapşırıq tərəfimizdən icra olunub, qeyd olunan layihələr hazırlanaraq aidiyyəti qurumlarla razılaşdırıldıqdan sonra Nazirlər Kabinetinə təqdim edilib".

### Media subyektlərinə vergi güzəştlərini nəzərdə tutan layihə hökumətə təqdim edilib

**Media subyektlərinə vergi güzəştlərini nəzərdə tutan layihə hökumətə təqdim edilib**

"Media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi məqsədilə onlara müəyyən müddət ərzində vergi tətillərinin tətbiqini nəzərdə tutan layihə artıq hökumətə təqdim edilib".

Bunu "Report"un sorğusuna cavab olaraq MEDİA-nın Kommunikasiya şöbəsinin müdiri - mətbuat katibi Səidə Şəfiyeva bildirib. O qeyd edib ki, hazırda layihəyə baxılmaqdadır.





# "Rəsul Rzanın bütün əşyalarını qoruyub saxlamışıq"

Anar Rzayev: "Atamın vaxtilə istifadə etdiyi yazı masası, mebelləri, avadanlıqları, fotoları, kitabları, əlyazmaları durur"

**"Xalq şairi Rəsul Rzanın ev-muzeyinin yaradılması ilə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncamı ancaq yüksək qiymətləndirə bilərəm. Cənab Prezidentə böyük minnətdarlığımı bildirirəm. Çox sevincliyik".**

Bunu "Report"a açıqlamasında Rəsul Rzanın oğlu, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Rzayev bildirib.

O qeyd edib ki, R.Rzanın Bakı şəhəri, Səbail rayonu, Rəsul Rza küçəsi 21/26 ünvanında yerləşən mənzilində hazırda yaşayış yoxdur: "Rəsul Rzanın bütün əşyalarını qoruyub saxlamışıq. Atamın vaxtilə istifadə etdiyi yazı masasını, mebellərini, avadanlıqlarını, fotolarını, kitablarını, əlyazmalarını və s. hamısını qorumuşuq".

*A.Rzayev söyləyib ki, ev-muzeyinin necə olması ilə bağlı danışmaq hələ tezdir:* "Çünki sərəncam yeni imzalanıb. Onu deyim ki, mənzilin qismən təmirə ehtiyacı var. Daha sonra əşyaların necə yerləşdirilməsi, ştat vahidinin necə formalaşdırılması və s. haqqında düşünmək lazımdır".

*Qeyd edək ki, Prezident İlham Əliyev iyunun 23-də R.Rzanın ev-muzeyinin yaradılması haqqında sərəncam imzalayıb.*




# ABŞ-ın Minsk qrupunu dirçəltmək cəhdi təhlükəlidir

## Azərbaycan Vaşinqtonun sülh danışıqlarını yenidən uğursuzluq zolağına çəkməsinə imkan verməyəcək

**ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Kerri Donfrid ATƏT-in Minsk qrupu məsələsini yenidən gündəmə gətirib. Keçən həftəsonu Bakıdan İrəvana yollanan diplomat bəyan edib ki, "ABŞ Ukraynadakı müharibəyə görə Rusiya ilə münasibətləri kəssə də, sülh yolu ilə və uzunmüddətli nizamlanma üçün Minsk qrupunda əməkdaşlığı davam etdirməyə hazırdır".**



Donfrid Vaşinqtonun Minsk qrupunun həmsədrlik prosesini dəstəklədiyini deyib: "Biz inanmağa davam edirik ki, bu, xüsusilə Dağlıq Qarabağ məsələsində çox vacib formatdır. Sülh prosesini irəli aparmaqdan ötrü fərqli formatları saxlamaq vacibdir. Və biz bunu yaxın gələcəkdə də davam etdirəcəyik". Amerikalı diplomat həmçinin bu formatda Rusiya ilə əməkdaşlığı mümkün saydığını bildirib: "Rusiya Minsk qrupunun həmsədridir. Odur ki, bəli, Fransa, ABŞ və Rusiya bu formatı davam etdirəcək". Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev bu ilin yanvarında yerli telekanallara müsahibəsində Bakının Minsk qrupunun Qarabağ məsələsi ilə məşğul olmaq cəhdlərinə imkan verməyəcəyini açıq şəkildə söyləyib. IX Qlobal Bakı Forumunda Prezident oxşar fikri bir daha təkrarlayıb. Qeyd edək ki, hazırda ABŞ, Fransa və Rusiya münasibətləri ən kritik dövrünü yaşayır.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmisi Mariya Zaxarova Donfridin açıqlamasını şərh edib. Zaxarova bildirib ki, Moskva ABŞ-ın ATƏT-in Minsk qrupunun həmsədrliyi çərçivəsində işləməyə hazır olması barədə bəyanatlarının səmimiliyinə şübhə edir: "Əgər Vaşinqton və Paris həqiqətən də Minsk qrupunun unikal vasitəçilik formatını vacib hesab etsəydi, bütün iştirakçı dövlətlər tərəfindən təsdiq edilmiş mandatına etinadsız yanaşmazdı". Onun sözlərinə görə, ABŞ və Fransa fevralın 24-də Minsk qrupunun rusiyalı həmsədri ilə təmasları heç bir məsləhətləşmə aparmadan kəsiblər. Bu cür məsuliyyətsiz hərəkətlərin təkrarlanmayacağına təminat yoxdur".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, Vaşinqtonun Minsk qrupunu canlandırmağa çalışması Azərbaycan-ABŞ münasibətlərini gərginləşdirə bilər. Analitikin sözlərinə görə, İkinci Qarabağ müharibəsindən sonra Minsk qrupunun fəaliyyətini davam etdirməsi məntiqə ziddir:** "Birincisi, Azərbaycan İkinci Qarabağ müharibəsində qələbə çalıb. Rəsmən elan edib ki, Minsk qrupunun fəaliyyətini davam etdirməsinə ehtiyacı yoxdur. İkincisi, Rusiyanın Ukraynada apardığı işğalçı müharibəyə görə Kremlin Vaşinqton və Parislə münasibətləri gərgindir, ortada sanksiyalar var. Rusiyanın Xarici işlər naziri Sergey Lavrov elan edib ki, Moskva bu şəraitdə Vaşinqton və Parislə birgə Minsk qrupunda fəaliyyət göstərə bilməyəcək. Azərbaycan istəmir, Rusiya da bunun mümkünsüz olduğunu hesab edir, Vaşinqton isə tutub ki, yox e, "birgə çalışmalıyıq". Səbəb nədir? Görünür, Vaşinqtonda hesab edirlər ki, Minsk qrupu ABŞ-ın Cənubi Qafqazda varlığını təmin edən formatlardan biridir. Guya bu yolla Rusiyanın bölgədəki hegemonluğunun qarşısını ala bilərlər. Azərbaycan ABŞ-la müxtəlif formatlarda - enerji, təhlükəsizlik sahələrində əməkdaşlıq edir və rəsmi Bakı bundan məmnundur. Bunlar varkən Azərbaycanın istəmədiyini zorla bizə qəbul etdirmək bu formatlardakı əməkdaşlığa mənfi təsir edə bilər ki, bu nə Azərbaycanın, nə də ABŞ-ın maraqlarına cavab verir. Aydındır ki, Vaşinqton rəsmən Minsk qrupunun dağıldığını elan edə bilmir, bunu uğursuzluğun etirafı kimi qiymətləndirir. Bu elana ehtiyac yoxdur, sadəcə, Minsk qrupunu canlandırmaq təşəbbüsləri də bölgəyə yaxşı heç nə vəd etmir. Vaşinqton ermənilərin istəyi ilə Minsk qrupunu canlandırmaq istəyindən vaz keçməsə, bu xora Paris də qoşulacaq və bu, bölgədə gərginliyi daha da artıracaq".

**İsmayıl Qocayev**

# Türkiyədə yanğınlar

## Azərbaycanın amfibiya təyyarəsi yardıma gedib



**Türkiyədə meşə yanğını baş verib. Marmaris rayonunda baş verən meşə yanğınının böyük ölçüdə nəzarət altına alındığı bildirilsə də, yanğınlar hələ də davam edir. Türkiyə mətbuatı yanğının davam etdiyi ərazilərdən yeni görüntülər yayıb. Qeyd olunur ki, yanğın xüsusən ərazidə müşahidə edilən küləyin təsiri ilə ətrafa yayılır. Ümumilikdə 2884 hektar ərazinin yandığı bildirilir.**

Yanğınların söndürülməsində iştirak etmək üçün birbaşa Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycan Fövqəladə Hallar Nazirliyinin amfibiya təyyarəsi Türkiyəyə yola düşüb. "BE-200ÇS" amfibiya tipli təyyarəsi 10 nəfərlik heyətlə Muğla bölgəsinin Dalaman Hava Limanında eniş edəcək.

Beynəlxalq Hava Limanında jurnalistlərə açıqlamasında Fövqəladə Hallar Nazirliyinin aviasiya xidmətinin rəisi, general-mayor Əşrəf Qasımov jurnalistlərə açıqlamasında deyib ki, təyyarəmiz Türkiyədə baş verən yanğınların söndürülməsində iştirak edəcək: "Bildiyiniz kimi ötən ildə qardaş Türkiyədə baş verən yanğının söndürülməsində iştirak etmişik. Yanğınların söndürülməsinə effektiv təyyarədir. Suyun üzərində durmadan 18-20 dəq 12 tona yaxın su götürmə həcminə malikdir. Suyu görürərək yanğın bölgəsinə yola düşür".

*Xatırladaq ki, 2021-ci ilin iyul-avqust aylarında dost ölkədə geniş yayılan meşə yanğınlarının söndürülməsində də Azərbaycan yanğınsöndürənləri iştirak etmiş, eləcə də amfibiya təyyarəsi göndərilmişdi.*

2021-ci ildə olduğu kimi bu gün də Azərbaycanın öz qardaş ölkəsinə köməyə tələsməsi və əlində olan bütün imkanları səfərbər etməsi qürur hissi doğurub.

**Azərbaycanla Türkiyənin dırnaqla ət kimi ayrılmaz olduğunu deyən "Yeniçağ" media qrupunun rəhbəri Aqil Ələsgər "Şərq"ə açıqlamasında bildirib ki, belə məsələlərdə Azərbaycan və Türkiyə münasibətləri digər ölkələrə örnəkdir:** "Azərbaycanın Türkiyənin yardımına tələsməsi təəccüblü hal deyil. Bu, bizim əlaqələrimizdə normal bir hal kimi qiymətləndirilməlidir. Əlbəttə, biz istəmirik ki, hansısa bədbəxt hadisələr olsun. Lakin yay aylarıdır və belə hadisələrin olması gözləniləndir. Həm Azərbaycan FHN-in, həm dövlətin bu məsələyə reaksiyasını sadəcə alqışlamaq olar".

**Nihat Müzəffər**



# Yeni qlobal epidemiya təhlükəsi

## İldə 100 min insanın ölümünə səbəb olur

**Dünya Covid-19 və daha sonra "meymun çiçəyi" virusu ilə mübarizə apardığı bir ərəfədə ABŞ alimlərindən yeni bir epidemiya xəbərdarlığı gəlib.**

Antibiotiklərə təslim olmayan bir xəstəlik olan tif qızdırması halları qlobal miqyasda artmağa başlayır ki, bu da öz növünün ən böyüyüdür. Elm adamları hər il təxminən 100 min insanın ölümünə səbəb olan xəstəliyə qarşı ölkələrdən tədbir görmələrini istəyib.

Antibiotiklərdən qaça bilən qlobal infeksiyaların artan təhlükəsini vurğulayan yeni bir araşdırmaya görə, əsasən Cənubi Asiyadan gələn tif qızdırması son üç onillikdə sərhədləri demək olar ki, 200 dəfə keçib.

2014-2019-cu illər arasında alimlər tif xəstəliyinə səbəb olan və ildə 100.000-dən çox insanın ölümünə səbəb olan bakteriyanın yeni növünü - "3.489 S"ni müəyyən ediblər.

Ən çox yoluxma halı olan dörd ölkədən (Banqladeş, Hindistan, Nepal və Pakistan) məlumatlar 70-dən çox ölkədən 4169 oxşar nümunənin təhlili ilə birləşdirilib və bu, öz növbəsində ən böyük tədqiqat olub.

"The Lancet Microbe" elmi jurnalında dərc olunan yazılar qlobal problemlərin hələ də qaldığını göstərib. Tədqiqat nəticəsində məlum olub ki, bakteriyanın iki mühüm antibiotik növünü, makrolidləri və xinolonları məğlub edə bilən ştammlarının sayı sürətlə artır və tez-tez digər ölkələrə yayılır.

Digər tərəfdən, elm adamları illərdir ki, ən güclü antibiotiklərlə müalicədən sağ çıxa bilən ölümcül halların artacağı barədə xəbərdarlıq ediblər. Yanvar ayında aparılan ayrı bir araşdırmaya görə, dərmana davamlı xəstəliklər 2019-cu ildə HİV/AİDS və ya malyariyadan daha çox insanın ölümünə səbəb olub.

Son nümunələrə ABŞ-da artan infeksiyalar və Hindistanda keçən il ortaya çıxan ölümcül göbələk epidemiyası da daxildir.

ABŞ-ın Stenford Universitetinin dosenti və tədqiqatın aparıcı müəllifi Ceyson Endryus araşdırmanın nəticələrinin "narahatlıq üçün əsl səbəb" olduğunu bildirib və xüsusilə yüksək riskli ölkələrdə profilaktika işlərinin aparılmasına çağırıb.

**Turan**

# Deputat da "ağlayır", sadə vətəndaş da!

## Meyvənin qiyməti "ceyran belində" ...

### Rəşad Həsənov: "Şərtlər o qədər ağırdır ki, sadə vətəndaşlara nə isə tövsiyə etmək çox çətindir"

**Millət vəkili Fəzail Ağamalı mövsüm meyvələrinin bahalığından gileyləndi. Parlamentari qeyd edib: "Yüksək əməkhaqqı alan bir insan kimi etiraf edim ki, mən imkan edib yeni çıxan meyvələrdən ala bilməmişəm. Rayonları deyə bilmərəm, amma Bakıda bazar qiymətləri fantastik həddədir. Gilasın qiyməti 8-10 manat aralığında dəyişir. Belə şey olar?!".**

Deputat bildirib ki, bazarda qiymətlərə müdaxilə etmək imkanları olmadığı üçün təəssüf edir: "Bu gün tək meyvə deyil, bütün ərzaq məhsullarında bahalaşma var. Vaxtilə 1 manata aldığım təndir çörəyini dünən 1.50 manata aldım. Düzdür, dünyada qiymət artımı çox sürətlə gedir. Azərbaycan da dünyadan təcrid olunmuş vəziyyətdə deyil.

Amma təəssüflər olsun ki, Azərbaycanda istehsal olunan məhsullarda belə möhtəkirlərin insanların əzabı üzərində çox pul qazanmaq kimi eybəcər istəklərini görürük. Bununla bağlı müvafiq qurumlar hərəkətə keçməlidirlər".

Deputatın bu açıqlaması sosial şəbəkələrdə birmənalı qarşılanmayıb. Kimi ona haqq qazandırıb, kimi də qeyri-səmimi çıxış etdiyini iddia edib. Ümumilikdə isə doğrudan da bazarlarda mövsümi meyvə və tərəvəzlərin qiyməti "əl yandırır". Başqa bir həqiqət də odur ki, yüksək əmək haqqı ilə təmin olunan millət vəkili bu qiymətə meyvə alıb nübar edə bilmirsə, bu məqamda sadə vətəndaşların vəziyyətini anlamaq elə də çətin deyil.



**Məsələ ilə bağlı "Şərq"ə danışan iqtisadçı-ekspert Rəşad Həsənov bildirib ki, son dəyər zəncirində istehsalçının yox, digər alverçilərin olması təklif qiymətinin həddindən artıq baha olmasına gətirib çıxarır:** "Şərtlər o qədər ağırdır ki, sadə vətəndaşlara nə isə tövsiyə etmək çox çətindir. Biz insanlara meyvə və tərəvəzin istehsalını tövsiyə edirik ki, qiymət aşağı düşsün.

Çox təəssüf ki, sadalanan məhsullar mövsüm dövründə də ucuzlaşmadı və sıravi ailələrin ala biləcəyi qiymətə təklif edilmir. Bunun səbəbləri inflyasiya, xərclərin artması, ixrac meyilliliyinin son vaxtlar güclənməsi və s-dir.

Hökumət bu günlərdə dövlət büdcəsini müzakirə edir. Amma sosial təminatlı xərclərin artırılması ilə bağlı heç bir paket ortaya qoyulmadı. Xüsusilə həssas sosial qrupların qidaya çıxışı ilə bağlı bir sıra ölkələrin təcrübəsi var.

Onlar ərzaq kartlarından tutmuş birbaşa yardıma qədər dəstək alətlərindən istifadə etməklə balansı qorumağa çalışırlar. Əfsuslar olsun ki, Azərbaycanda hələlik bu müşahidə olunmur".

**Nihat Müzəffər**

# Dəqiq proqnoz vermək çətindir

## Avropa İttifaqının rəsmiləri Ukraynanın üzvlüyə konkret olaraq nə vaxt qəbul ediləcəyini açıqlamır

**Avropa Parlamenti Ukrayna və Moldova ilə bağlı qətnamə qəbul edib. Qanunverici orqan hər iki ölkəyə Avropa İttifaqına (Aİ) üzv olmaq üçün namizəd statusunun verilməsini dəstəkləyib. Qeyd edək ki, Ukrayna və Moldovaya namizəd statusunun verilib-verilməməsi ilə bağlı yekun qərar Aİ-nin Belçikanın paytaxtı Brüsseldə keçirilən sammitində qəbul ediləcək.**

Xatırladaq ki, Moldova, Ukrayna və Gürcüstan uzun müddətdir Avropa İttifaqının üzvü olmaq üçün ciddi təşəbbüslər göstərirlər. Xüsusən, Rusiya-Ukrayna müharibəsinin başlanmasından sonra adıçəkilən ölkələrin Aİ-yə üzvlük məsələsi bir qədər də aktuallaşıb.



**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə bildirib ki, hər yeni üzvün Avropa İttifaqına qəbul edilməsi dil, adət-ənənə və milli maraqlar fərqliliyinə, eyni zamanda əhəmiyyətli dəyişikliklərin olmaması səbəbindən təşkilatın ahəngdarlığı pozulur. İdarəetmə çətinləşir. Partiya rəsmisinin sözlərinə görə, Avropa İttifaqının müəyyən prinsipləri və kriteriyaları var:** "2014-cü ildə Ukraynanın Avropa İttifaqına assosiativ üzv qəbul edilməsi barədə saziş imzalanıb. Amma Ukrayna təşkilata tamhüquqlu üzv kimi qoşulmaq istəyirsə, müəyyən olunmuş kriteriyalara tam cavab verməlidir. Hazırda Avropa İttifaqı özündə 27 dövləti birləşdirir. Bir neçə dövlət üzvlük barədə müraciət etsə də, hələ təşkilata qəbul olunmayıb. Bu dövlətlərdən biri də Ukraynadır. Hazırkı münaqişəyə qədər Ukrayna ilə Aİ arasında bu istiqamətdə müzakirələr davam edib. Aİ rəsmisi Jozef Borrelin bir müddət əvvəl təmsil etdiyi təşkilat adından yaydığı açıqlamada qeyd olunurdu ki, Avropa İttifaqı Ukraynanı beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində dəstəkləyir. Rəsmi Kiyevlə siyasi və iqtisadi əlaqələrin güclənəcəyi deyilmişdi. Bütün bunlara rəğmən, hətta rəsmi namizədlik statusu verildikdən sonra belə Avropa İttifaqının rəsmiləri Ukraynanın üzvlüyə konkret olaraq nə vaxt qəbul ediləcəyini açıqlamır. Avropa Komissiyasının sədri Ursula fon der Leyen də məlum açıqlamasında "Ukrayna Avropa İttifaqına daxil olmalıdır" deyib. Bunun zamanla baş tutacağını söyləyib. Hesab edirəm ki, bu məsələ ilə bağlı dəqiq proqnoz vermək çətindir. Ən azı həmin regionda münaqişə dayandıqdan, sabitlik bərpa olunduqdan sonra bu barədə fikir yürütmək olar".

**İsmayıl Qocayev**



# İran Azərbaycanın güclənməsindən əndişələnir

## Türkiyə, Pakistan, İsrail və bütün türk dövlətlərinin yanımızda olması molla rejimini narahat edir

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov Azərbaycanda din-dövlət münasibətlərindən və son günlər yaşanan olaylardan danışıb. Sədr müavini bildirib ki, islam dininin siyasiləşdirilməsi yolverilməzdir. Onun sözlərinə görə, bəzən Azərbaycanı dini azadlığın pozulduğu ölkələrlə eyni sırada göstərməyə cəhd edirlər:**

”Azərbaycanda din sahəsində mövcud birlik və həmrəylik yüksək dəyərləndirilir. Təəssüf ki, özünü dünyaya beynəlxalq təşkilat kimi təqdim edən din və vicdan azadlığından danışan qurumlar bəzən Azərbaycan reallıqlarını qərəzli, qeyri-obyektiv formada göstərməyə çalışırlar. Hətta bəzən Azərbaycanı din azadlığı pozulan ölkələrlə eyni sırada göstərməyə cəhd göstərirlər”. S.Heydərov qeyd edib ki, dini mövqedən yönələn təhdidləri nəzərə alsaq, belə hallar bir an belə Azərbaycana qarşı səngimir: ”Reallıq odur ki, Azərbaycan bəşəri dəyərləri zənginləşdirməyə çalışdığı halda küçədə edilən xırda söhbətləri şişirdib beynəlxalq müstəviyə çıxarmağa çalışanlar yanılırlar. Bunun da heç bir xoş nəticəsi olmayacaq. Əksinə, bununla onlar öz işlərinə kölgə salırlar”.

Səyavuş Heydərov vurğulayıb ki, Azərbaycanda dini icmaların rahat şəkildə fəaliyyət göstərməsi üçün bütün lazımi şərait yaradılıb: ”Erməni vandalizmini, xüsusilə də işğaldan azad olunmuş ərazilərdəki erməni vəhşiliyini göz ardına vuraraq bu məsələyə kifayət qədər önəm verməkdən boyun qaçırırlar. Hesabatlarda bu faktlara ötəri yanaşılır, yaxud diqqət edilmir, əks olunmur. Eyni zamanda, bir sıra beynəlxalq təşkilatlar xristian və islam dinlərini siyasiləşdirməyə çalışırlar. Təbii ki, islam dininin siyasiləşdirilməsi yolverilməzdir. Din siyasiləşəndə təhlükəli hala çevrilir”. Sədr müavini Azərbaycandakı dini icmalara çağırış edib: ”Ölkə həqiqətlərini, erməni vandalizmini dünya ictimaiyyətinə çatdırmağa var qüvvələri ilə çalışsınlar, fəal olsunlar. Hədəfimiz dini icmalarla ölkədə mövcud olan dəyərləri daha da qorumaq, inkişaf etdirmək, eləcə də bəşəri dəyərlər üçün olduqca mühüm olan dəyərləri qorumaqdır”.

Xatırladaq ki, son günlər İran tərəfdən ölkəmizə qarşı növbəti hədyanlar səslənməkdədir. Ölkədə baş vermiş bəzi olayları əlində bayraq edən İran mollaları Azərbaycanda guya din azadlığının olmadığını, dindarların təzyiqlərə məruz qaldığını iddia edirlər.

**Siyasi şərhçi Turan Rzayev ”Şərq”ə bildirib ki, İranın Azərbaycana qarşı ənənəvi siyasətinin daha da aqressivləşməsinin əsas səbəbi qələbədən sonra Azəbaycanın bölgədə güclənərək nüfuz sahibinə çevrilməsi, Türkiyə və Pakistanın Azərbaycanın yanında olması, İsrailin dost münasibətləridir.** Təbii ki, bütün bunlar İranı qıcıqlandırmaya bilməz. Cənubi Qafqazda söz sahibi olmadığını görən molla rejimi Azərbaycanı özü üçün potensial təhlükə hesab edir: ”Məhz buna görə də maraqlarımızın əleyhinə getməklə mövcud situasiyanı öz xeyrinə dəyişmək istəyir. ”Allahın təhqir edilməsi” məsələsi Tehranın əlini gücləndirmək üçün formalaşdırdığı uydurma informasiyadır. İran son günlər Azərbaycana qarşı, xüsusilə dini inanclı qadınların iştirakı ilə aksiyalar təşkil etməyə çalışır. Aydın məsələdir ki, İran Azərbaycanı daim qorxu altında saxlamağı, onun maraqlarına uyğun siyasət aparmağımızı istəyir. Bunun bütün resurslarından istifadə etməyə hazırdır. İnsanların imanı ilə manipulya edən, bu istiqamətdə qadınları belə önə atan molla rejimi bir daha göstərir ki, onun ”ali” maraqları naminə edə bilməyəcəyi şey yoxdur. İranın məzhəb siyasətinə qarşı rəsmi Bakının Cənubi Azərbaycan məsələsini qaldırmalı olduğunu təklif edənlər var. Hesab edirəm, bu, doğru yanaşma deyil. Birincisi, Azərbaycan heç bir ölkənin ərazisinə iddia etmir və bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşır. İkincisi, Azərbaycan təkcə 10 milyon azərbaycanlının deyil, həm də 40 milyondan çox cənublu soydaşlarımızın vətənidir. Rəsmi Bakı heç vaxt Tehranın təxribatçı siyasətinə cavab olaraq cənublu soydaşlarının qanının axmasına yol verə bilməz”.

**İsmayıl**

# "Müharibə tezliklə bitəcək"

## Mehman Əliyev: “Artıq Rusiya Ukrayna ilə bağlı bütün böyük hədəflərini kənara qoyub”



### “Danışıqlar mərhələsində hər ölkə öz problemini gündəmə gətirəcək və müzakirələr gedəcək”

**“Rusiyanın amansız müharibəsinə baxmayaraq, birgə səylər nəticəsində tezliklə qarşı tərəf üzərində qələbə olacaq”.**

Bu fikirləri Ukraynanın dövlət başçısı Volodimir Zelenski deyib. Zelenski müharibəni ən qısa vaxtda qələbə ilə bitirəcəklərini söyləyib: ”Vahid Avropa istənilən diktaturadan güclüdür. Hətta belə amansız müharibə zamanı da Ukraynanın demokratik institutları qorunub saxlanılıb”. Zelenskinin ”müharibə tezliklə bitəcək” bəyanatını ”Şərq”ə təhlil edən ”Turan” İnformasiya Agentliyinin rəhbəri, siyasi şərhçi Mehman Əliyev də hesab edir ki, Rusiya-Ukrayna savaşının tezliklə bitmə ehtimalı yüksəkdir...

**- Mehman müəllim, Rusiya-Ukrayna savaşının tezliklə sona çatacağı ilə bağlı iddiaları necə dəyərləndirirsiniz?**

- Mən də o cür düşünürəm. Artıq Rusiya Ukrayna ilə bağlı bütün böyük hədəflərini kənara qoyub. Ruslar indi sadəcə Donbasdan danışırlar. Luqansk demək olar ki, tamam götürülüb. Donetskdə də xeyli irəliləyiblər. Tərəflərin bölgədə üstünlüyu hardasa əlli-əlliyədir. Çox güman Donetskdə də proses bir araya yekunlaşacaq. Bununla da müharibə dayandırılacaq.

**- Yəni müvəqqəti atəşkəs imzalanacaq?**

- Təbii ki, burada müvəqqəti dayanmadan söhbət gedir. Bir növ Gürcüstanın Osetiya və Abxaziya problemi kimi olacaq. Yəni müharibə, döyüş əməliyyatları dayandırılır, amma ərazi problemləri qalır.

**- Bəs bundan sonra hansı mərhələ başlayır?**

- Bununla da yeni mərhələnin, danışıqlar prosesinin əsası qoyulur. Danışıqlar mərhələsində hər ölkə öz problemini gündəmə gətirəcək və müzakirələr gedəcək. Ukraynanın əsas istiqaməti Avropa Birliyidir. Kiyev aktiv şəkildə Aİ-yə doğru irəliləyir. Rusiya isə Qərblə münasibətləri bərpa etmək istəyir.

**- Prosesin bu şəkildə bitməsi Rusiyanın qələbəsi anlamına gəlmirmi?**

- Əslində Moskva da ümumi prosesin iştirakçısıdır. Rusiyanın da öz məqsədləri, hədəfləri var idi və demək olar ki, Moskva öz hədəflərinə nail olub. Yəni məsələ artıq bitmiş sayılır.

**İsmayıl Qocayev**

# Lavrov qovluğunda nə gətirib?

## Aqşin Kərimov: “Lavrovun səfəri Azərbaycan-Ermənistan sülh gündəliyində Bakının şərtlərini aktuallaşdıracaq”




**“Bakı-Moskva əlaqələrində zamanla ziddiyyətlər və mübahisəli məqamlar yaransa da, bu, iki dövlətin bir-birinə yaxınlaşmasının qarşısında sərt maneəyə çevrilməyib”.**

*Bu barədə ”Şərq”ə açıqlamasında siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, Rusiyanın postsovet məkanında ambisiyalarını artırmaq cəhdlərinin bir ucu da Azərbaycana toxunur*: ”Rusiyanın Azərbaycanda təsir dairəsi daralsa da, Bakı təhlükəsizlik məsələlərində səbrli davranır və mövcud boşluqları doldurmaq üçün Türkiyə ilə birlikdə siyasi-diplomatik səylərini hərbi-siyasi aktivliklə uzlaşdırır. Azərbaycan-Türkiyə strateji müttəfiqliyi, qarşısına Rusiyanı almaq kimi bir amala söykənmir. Ancaq bu birlik Kremldən əsdirilən küləklərin qarşısında həlledici baryer rolunu oynayır. Cənubi Qafqazdakı yeni reallıqlar zəminində üç ölkə vahid ox ətrafında da birləşə bilir və bəzi addımlar Bakı-Ankara-Moskva üçlüyü formatındakı birgə maraqlar çərçivəsində atılır.

Rusiya üçtərəfli və çoxtərəfli formada əlaqələrin dinamikasından məmnundur. Amma o, proseslərdə ambisiyalı siyasətini ortaya qoyaraq hegemonluq prinsipləri ilə üstünlük qazanmaq meylindən kənarlaşmır və mübahisəli məqamlar da burada yaranır. Azərbaycan imzalanan üçtərəfli bəyanatlarda Moskvanın üzərinə düşən öhdəlikləri yerinə yetirməsini tələb edir. Rusiyanın hazırkı duruşunda Azərbaycanın maraqlarına pozitiv cavab verən elementlərin çoxluğu müşahidə edilsə də, Kreml ara-sıra ikibaşlı mövqe nümayiş etdirir. Ukraynadakı müharibə fonunda isə həmin ritorika qızışır. Cənubi Qafqazda Türkiyə ilə Rusiya səylərini eyni yolda idarə edirlər. Bu isə Azərbaycanın strateji təhlükəsizlik sferası ilə üst-üstə düşür”.

**Ekspertə görə, Sergey Lavrovun Bakıya səfəri açıq qalan məsələlərin həlli və müştərək maraq yaradan sahələrin inkişaf etdirilməsi baxımından qiymətləndirilə bilər:** ”Moskvada narazılıq yaradan digər məqam Qərbin təşəbbüsü ilə Azərbaycan-Ermənistan danışıqlarının reallaşmasıdır. Rusiya Prezidenti Vladimir Putin ötən ilin noyabr ayındakı Soçi danışıqlarından sonra Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyanın görüşünü təşkil etməyib və ya edə bilməyib. Bunu isə Qərb dəyərləndirərək liderləri Brüsseldə bir araya gətirib. ABŞ və Britaniya ikilisinin Azərbaycan-Ermənistan sülh gündəliyi fonunda Cənubi Qafqazda mövqelərini gücləndirmək niyyətləri görünür. Etiraf etmək lazımdır ki, onların bu regiondakı iqtisadi fəallığı heç də Rusiyanın strateji maraqları ilə ziddiyyət təşkil etmir. Niyə? Çünki regionda iqtisadi aktivlik Rusiyanın əlinə işləyir, amma siyasi mövzularda iplər qırılır. Moskva Bakının Qərblə münasibətlərinin hərbi-siyasi müstəvidə ağır çəki qazanmasını arzulamır.

Ona görə də şübhə yeri qalmır ki, Lavrov Qərb ölkələrinin diplomatlarının Bakıya intensiv səfərlərində onların hansı məsələləri müzakirə masasına qoyduğunu öyrənmək üçün gəlir”.

**A.Kərimov vurğulayıb ki, Bakı Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindəki təhlükəsizlik məsələsi, həmin zonanın ictimai-siyasi mühitinin dəyərləndirilməsini aparır. Bununla bağlı Türkiyə və Rusiya ilə məlumat mübadiləsi həyata keçirir:** ”Artıq Rusiya sülhməramlılarının Laçın şəhərinin mərkəzindən çıxarılaraq Laçın yoluna alternativ çəkilən yola yerləşdirilməsi prosesi başlayır və Bakı ilə Moskva bundan sonrakı təhlükəsizlik məsələlərinin sxemini müzakirə edir. Qarabağdakı erməni əhalinin təhlükəsizliyinə Azərbaycan dövləti təminat verir. Lavrov həmin təminatların motivlərini öyrənmək və Moskvanın prosesdə oynaya biləcəyi rolu bildirmək üçün yolunu Bakıya salır.

Moskvanın bu istiqamətdəki rolunu Azərbaycanla Rusiya arasında imzalanan müttəfiqlik, qarşılıqlı fəaliyyəti haqqında bəyannamənin maddələrinə istinadla xatırlatmaq lazımdır. Rusiya separatçıları qızışdıran hərəkətlərdən çəkinməli və Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini, suverenliyini şübhə altına qoya biləcək ikibaşlı manevrlərə yol verməməlidir. Lavrov Azərbaycan-Ermənistan sərhədinin delimitasiya prosesində əldə edilən nəticələr barədə də məlumatlar alacaq. Moskvanın bundan sonrakı addımları həmin nəticələrlə uyğunlaşdırılacaq.

Lavrovun qovluğundakılar ikitərəfli münasibətlərin xarakterini müttəfiqlik bəyannaməsi ilə möhkəmləndirən tezislərə əsaslanır. Lavrovun səfəri Azərbaycan-Ermənistan sülh gündəliyində Bakının şərtlərini aktuallaşdıracaq. Rusiya-Ukrayna müharibəsi fonunda Moskva Bakı və Ankara ilə yeni əməkdaşlıq mexanizmi qurmağa çalışacaq. Bunun üçün maliyyə təminatları mənbələrini arayacaq.

Rusiya Azərbaycanın enerji bazarlarında artan roluna görə Bakıya olan qısqanc münasibətini davam etdirsə də, bu, münasibətlərə xələl gətirməyəcək”.

**İsmayıl**

“Bütün türk xalqları ortaq əlifbada yazsınlar, ortaq dərsliklərimiz olsun. Hətta birgə şirkətlər quraq, ortaq gömrük xidmətləri təşkil edək. Məhz bu cür ortaqlıqların sayını artırsaq, bir də görəcəyik ki, türk xalqlarının inteqrasiyası ən yüksək həddədir”



# "Özbəklərin dili bizə çox yaxındır"

## Firudin Cəlilov: “Ona görə də bir-birimizi rahat başa düşürük”

**İyunun 22-də Özbəkistanın Xivə şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə ziyafət təşkil edilib. Konsert proqramı başa çatdıqdan sonra Azərbaycan və Özbəkistan prezidentləri incəsənət ustaları ilə söhbət ediblər.**

Prezident İlham Əliyev bildirib ki, Şavkat Mirziyoyevlə ünsiyyət qurmaq üçün tərcüməçiyə ehtiyac yoxdur. O qeyd edib ki, Azərbaycan və özbək xalqları çox yaxındır və eyni kökə malikdir: ”Qardaşım Şavkat Miromonoviçin bütün dediklərini mən anladım, tərcüməçiyə ehtiyac qalmadı. Mənim dövlət səfərim bu gün başa çatır. Dünən Daşkənddə, bu gün Xivədə, Ürgəncdə, Xarəzm vilayətində olmağımdan çox məmnunam. Dünən və bu gün bir daha gördüm ki, xalqlarımız bir-birinə nə qədər yaxındır. Mədəniyyətimiz, incəsənətimiz, ümumiyyətlə, xalqlarımızın kökləri birdir. Bu gün Azərbaycan dilində oxunan mahnılar, nəğmələr sanki Azərbaycan müğənniləri tərəfindən ifa olundu. Heç bir ləhcə, şivə yoxdur. Bu, nəyi göstərir? Xalqlarımızın birliyini”.

Dövlət başçısı vurğulayıb ki, səfər zamanı çiçəklənən yeni Özbəkistanı kəşf edib. Prezident ümidvar olduğunu bildirib ki, Azərbaycan və özbək xalqları bir yumruq kimi birləşəcəklər.

**Türkoloq-alim, filologiya elmləri doktoru, professor Firudin Cəlilov ”Şərq”ə deyib ki, Prezident İlham Əliyevin Özbəkistana səfəri və möhtəşəm qarşılanması sevindiricidir. Professorun sözlərinə görə, Orta Asiyanın türk respublikalarına səfərlər qarşılıqlı və intensiv olarsa, nəticələr müsbət olar:** ”Özbəkistanla yanaşı, Qazaxıstan, Türkmənistan, Qırğızıstana da sıx səfərlər təşkil edilməlidir. Gediş-gəlişimiz çox olarsa, bir-birimizin dillərini də başa düşərik. Əslində özbəklər və türkmənlərlə dil bənzərliyi daha çoxdur, çünki onlar da qarluq (türk dillərinin bir qolu-red) dil qrupundandır. Ona görə də bir-birimizi rahat başa düşürük. Xüsusən, özbəklərin dili bizə yaxındır. Qazax və qırğızlar qıpçaq olduqları üçün bir qədər fərq var. Qarşılıqlı səfərlərin məqsədi türk xalqlarının daha da yaxınlaşması, hərtərəfli əlaqələrin genişləndirilməsidir”.

**F.Cəlilov vurğulayıb ki, əgər ondan məsləhət alsalar, Orta Asiyanın türk respublikalarına səfərlər zamanı mütləq ortaq dil və yazı məsələsinin gündəmə gətirilməsini xahiş edəcəyini söyləyib:** ”Bütün türk xalqları ortaq əlifbada yazsınlar, ortaq dərsliklərimiz olsun. Hərə özündən bir əlifba uydurmasın. Hətta birgə şirkətlər quraq, ortaq gömrük xidmətləri təşkil edək və s. Məhz bu cür ortaqlıqların sayını artırsaq, bir də görəcəyik ki, türk xalqlarının inteqrasiyası ən yüksək həddədir. Səfərlər, imzalanmış sənədlər çox gözəldir. Amma nəticə də gözəl olmalıdır ki, biz də baxıb sevinək. İmzalanan sənədlər kağız üzərində qalmamalıdır. İnteqrasiya sözdə qalmasın, əməldə də reallaşsın”.

Alim dövlət başçısı İlham Əliyevin Özbəkistanda yüksək səviyyədə, təntənəli mərasimlərlə qarşılanmasına da münasibət bildirib: ”44 günlük savaşdan sonra Azərbaycanın reytinqi bütün dünyada daha da yüksəldi. Ümumiyyətlə, qalib liderə hər yerdə sayğı və hörmət göstərilir. Həm də Özbəkistanın indiki rəhbəri əsl türk və millətini sevən demokrat adamdır. Onun ölkəyə rəhbərliyindən sonra Özbəkistan sürətlə dəyişməyə başlayıb. Təsəvvür edin, 30 ilə yaxın eyni qalan ölkə son bir ildə əsaslı dəyişikliklərə, uğurlara nail olub. Bunların hamısı mühüm faktorlardır”.

**İsmayıl Qocayev**

# Hərbi-texniki sahədə əməkdaşlıq inkişaf etdiriləcək

## 20-dək sənəd Azərbaycan və Özbəkistan arasında strateji tərəfdaşlığı keyfiyyətcə yeni mərhələyə yüksəldir



**Vətən müharibəsində Azərbaycanın öz ərazilərini erməni işğalından azad etməsindən sonra ölkəmizin regionda və dünyada nüfuzu durmadan artmaqdadır.**

Təsadüfi deyil ki, bölgədə sülhün bərpası prosesində Azərbaycanın irəli sürdüyü təkliflər və təşəbbüslər istər region ölkələri, istərsə də dünyanın supergüc dövlətləri və beynəlxalq təşkilatları tərəfindən qəbul edilməkdədir. Bu isə Azərbaycanın müxtəlif ölkələrlə əlaqələrinə də müsbət təsir göstərir. Xüsusən, son dövrlər Azərbaycanla Mərkəzi Asiya ölkələri, həmçinin Özbəkistan arasında münasibətlərdə canlanma müşahidə olunur. Prezident İlham Əliyevin iyunun 21-22-də Özbəkistana rəsmi səfəri iki ölkə münasibətlərinin yüksək səviyyədə olduğunu bir daha təsdiqlədi. Səfər zamanı müxtəlif sahələrdə müzakirələr aparıldı, Özbəkistanla əlaqələrə yenidən nəzər salındı. Prezidentin özbəkistanlı həmkarı Şavkat Mirziyoyevlə görüşü, imzalanan sənədlər və liderlərin səsləndirdiyi fikirlər iki ölkə münasibətlərində dərin köklərə dayanan yeni mərhələnin əsasının qoyulduğunu deməyə əsas verir.

**İki ölkənin münasibətlərindən "Şərq"ə danışan millət vəkili Ceyhun Məmmədov bildirib ki, Prezident İlham Əliyevin Özbəkistana rəsmi səfəri bir çox aspektlərdən xüsusi əhəmiyyət daşıyır.** Deputatın sözlərinə görə, səfər zamanı imzalanmış 20-dək sənəd Azərbaycan və Özbəkistan arasında strateji tərəfdaşlığı keyfiyyətcə yeni mərhələyə yüksəldir: "Azərbaycanla Özbəkistan bir sıra beynəlxalq platformalarda da sıx əməkdaşlıq edirlər. BMT, İƏT, TDT çərçivəsində Özbəkistan hər zaman Azərbaycanın Qarabağla bağlı haqq işini dəstəkləyib. Azərbaycan xalqı bunu hər zaman yüksək qiymətləndirib. Bu gündən Azərbaycanla Özbəkistan hərbi və hərbi-texniki sahədə də əməkdaşlığı inkişaf etdirəcəklər. Tərəflər nəqliyyat-logistika sahəsində əməkdaşlığın daha da gücləndirilməsini planlaşdırır. Əslində bu sahədə də iki ölkənin imkanları kifayət qədər genişdir. İki ölkə liderləri sənaye və investisiya sahəsində də əlaqələri inkişaf etdirməyi planlaşdırırlar. Məlum olduğu kimi, Özbəkistan Qarabağda həyata keçirilən abadlıq və quruculuq işlərində də iştirak etmək niyyətindədir. 2021-ci ilin noyabrında İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Özbəkistan Prezidenti Ş.Mirziyoyev Füzulidə Özbəkistan büdcəsinin vəsaiti hesabına böyük məktəb inşa ediləcəyini bildirmişdi. 3 hektar ərazidə 960 yerlik məktəb tikintisi üçün ərazi artıq müəyyənləşdirilib, ilkin işlərə başlanılıb. Bu, Azərbaycanla Özbəkistan arasında dostluğun, əsl qardaşlığın rəmzidir. Azərbaycan xalqı bu doğma münasibəti yüksək qiymətləndirir".

**İsmayıl Qocayev**



**Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinin rəhbəri dəyişib. Nümayəndəliyin səlahiyyət müddəti başa çatmaqda olan rəhbəri Arian Baueri bundan sonra Draqana Koiç əvəzləyəcək. Baş nazirin müavini Əli Əhmədov BQXK-nin sabiq rəhbəri Arian Bauer və nümayəndəliyin yeni rəhbəri Draqana Koiç ilə görüşüb.**

# BQXK-nin rəhbərliyi dəyişsə də siyasi xətti dəyişməyəcək

## Səadət Bənənyarlı: "Bizim əsas narahatlığımız əsir, itkin düşmüş, girov götürülmüş vətəndaşların taleyi ilə bağlıdır"

Nazirlər Kabinetinin məlumatında bildirilir ki, görüşdə Azərbaycan ilə BQXK arasında uzunmüddətli əməkdaşlığın uğurlu nəticələri barədə söhbət açılıb, birgə həyata keçirilən layihələrin önəmi vurğulanıb. Həmçinin BQXK-nin Azərbaycandakı nümayəndəliyinin fəaliyyəti ilə bağlı cari və perspektiv məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

**Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli Bölməsinin rəhbəri Səadət Bənənyarlı "Şərq"ə açıqlamasında qeyd etdi ki, BQXK-nin rəhbərliyinin dəyişməsi bu komitənin siyasi xəttini dəyişəcəyi anlamına gəlmir:**

- BQXK-nin rəhbərliyinin dəyişməsi ilə bu təşkilatın siyasi xətti dəyişməyəcək. İndiyədək hansı siyasi xətti yürüdürdülərsə, bundan sonra da o xətt davam edəcək. Bu tip təşkilatların bəlli iş prinsipi var və daim bu prinsip üzrə fəaliyyət göstərirlər. Ona görə də rəhbərliyin dəyişməsi ilə hansısa dəyişiklik olacağını gözləmək olmaz. Sadəcə, bir məsələ var ki, uzun müddət eyni vəzifədə olan şəxs problemləri artıq bilir, mühitə alışır, ona nəyisə yenidən izah etməyə ehtiyac qalmır. Yeni rəhbərlik də problemləri öyrənməli və onların həllinə çalışmalıdır. S.Bənənyarlı qeyd etdi ki, hazırda Azərbaycan tərəfinin BQXK-dən əsas gözləntisi Birinci Qarabağ müharibəsində əsir, itkin düşmüş, girov götürülmüş vətəndaşların taleyi ilə bağlı narahatlıqdır. BQXK arxivlərlə tanışdır deyə, bu işdə Azərbaycana real dəstək verə bilər.

**Məlahət**



# Öncə Qarabağda Azərbaycanın şərtləri yerinə yetirilməlidir

## Bundan sonra "3+3" formatının reallaşmasından danışmaq olar

**Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova həftəlik brifinqdə "3+3" formatı ilə bağlı çıxış edib. O qeyd edib ki, Rusiya tərəfi Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasında hamıdan çox maraqlıdır: "Buna görə də imkan verə bilmərik ki, ayrı-ayrı kənar oyunçuların siyasiləşmiş addımları regionda sülh və sabitliyin bərpa edilməsinə yönəlmiş səyləri boşa çıxarsın.**

"3+3" konsultativ regional platformanın ikinci iclasının keçirilmə vaxtı və yeri razılaşdırılır. Bu məlumatı təşkilatçı dövlətin təqdim etməsini daha düzgün hesab edirik. Hələ vaxtı dəqiqləşdirilməyən bu formatın işləyib-işləməyəcəyi və nələr vəd etdiyi maraq doğurur".

**Məsələ ilə bağlı "Şərq"ə danışan siyasi şərhçi Rusif Məmmədsoy qeyd edib ki, Rusiyanın Türkiyə və Azərbaycana çox böyük ehtiyac duyduğu bir dönəmdəyik:** "3+3 formatı" bu günün məsələsi deyil. İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın müharibədən dərhal sonra bu formatla bağlı açıqlamaları var idi ki, regionun inkişafı üçün "3+3 formatı" həyata keçirilməlidir.

Ancaq buna getmək üçün öncə Qarabağdakı proseslər yekunlaşdırılmalıdır.

Doğrudur, Rusiya ilə diplomatik səviyyədə yaxşı münasibətlərimiz var. Lakin bu proseslərdən öncə biz, separatçıların bölgəni tərk etməsini, yekun sülh müqavilələrinə mane olmamalarını gözləyirik. Hazırda bizim bütün diqqətimiz Qarabağdadır.

Bu məsələlər həll edildikdən və razılaşmaların bəndləri yerinə yetirildikdən sonra "3+3 formatı"nda iqtisadi əməkdaşlıq və s. amillərin müzakirəsi ola bilər. Bu formatda Türkiyə və Azərbaycan Birliyi açar rolunu oynayır".

**Nihat Müzəffər**

# İran 2000-ci ildən Borçalıya dini emissarlar göndərir

## Bölgədə Azərbaycanın dini təsirini İranın əvəzləməsində Gürcüstanın da öz maraqları var



**"İranın Borçalıda "dini kanton" yaratmaq imkanı 2011-ci ildə - QMİ təsir gücünü itirməyə başladığı dövrdə yarandı". Bu barədə "Şərq"ə siyasi şərhçi Asif Nərimanlı deyib.**

Analitik bildirib ki, Gürcüstanın 2003-cü ildən sonra dini icmaların dövlət nəzarətinə götürülməsi prosesində ilkin hədəfi Rusiya kilsəsinin təsirini azaltmaq idi: "Dalğa 2009-cu ildə Borçalıya da çatdı və QMİ yalnız 3 il - 2011-ci ilə qədər müqavimət göstərməyi bacardı. Ya müqavimət göstərə bilməməkdən, ya da strateji yanlışların nəticəsində, yaxud hər iki səbəbdən Azərbaycan dini təsir gücünü itirdi. Əvəzində İran aktiv şəkildə bölgəyə daxil oldu. İran hələ 90-cı illərin sonu 2000-ci illərin əvvəlində Qum və Məşhəddən Borçalıya dini emissarlar göndərir. Şərtlərin yaranmasına hazırlaşırdı. Bölgədə Azərbaycanın dini təsirini İranın əvəzləməsində Gürcüstanın da öz maraqları var. 2018-ci ildə bu mövzuları bir az araşdırmışdım. Hələ o vaxt Borçalı bölgəsində İranın şeyx düzəltdiyi Mirtağı Əsədovun rəhbərliyində 500-dən çox aktiv iştirakçı var idi. İndi sayları bir qədər də artıb. M.Əsədov 2011-ci ildə Azərbaycan vətəndaşlığından imtina edərək, Gürcüstan vətəndaşlığını qəbul etdi. Sonra baş verənlər hər şeyin illərlə hazırlanan planın parçası olduğu aydın olur. Bölgədə dini təsirin itirilməsi ciddi strateji səhvimiz idi. Bundan sonra Borçalıya yenidən qayıtmaq da asan görünmür".

**İsmayıl**

# Forsmajor halların olacağı gözlənilmir

## Azərbaycan hökuməti çox ehtiyatlı mövqe seçib

**Qlobal miqyasda davam edən proseslər və enerji resursları ilə bağlı yüksək qiymət gözləntiləri nəzərə alınaraq xam neftin bir barelinin orta illik ixrac qiyməti 85 dollar səviyyəsində götürülüb. Bununla bağlı məsələ "Azərbaycanın 2022-ci il dövlət büdcəsi haqqında" yenilənmiş qanun layihəsində öz əksini tapıb.**

Sənədə əsasən, bu ilin ilk dörd ayının makro-iqtisadi nəticələri ilə yanaşı, beş aylıq fiskal icra göstəriciləri cari il üzrə makroiqtisadi proqnozların dəqiqləşdirilərək yenilənməsi üçün əsas yaradıb. Qeyd edək ki, əvvəlki qanun layihəsində neftin bir barelinin orta illik ixrac qiyməti 50 dollar səviyyəsində götürülmüşdü. Lakin dünya birjalarında neft qiymətləri bahalaşıb. London birjasında "Brent" markalı neftin qiyməti 113 dollar, "Light" markalı neftin qiyməti isə 109 dollar olub. Maliyyə naziri Samir Şərifov da deyib ki, növbəti 7 ay üçün hökumətin büdcə layihələrinə dəyişiklik nəzərdə tutulub. Nazirin sözlərinə görə, həmin layihədə neftin bir barelinin qiyməti 85 dollar olacaq.



### *Neftin qiymətinin bir barelinin 85 dollara çatdırılması riskli deyil*

**İqtisadçı Pərviz Heydərov "Şərq"ə açıqlamasında bildirib ki, hökumət neftin büdcədə fiksə edilən qiyməti ilə bağlı çox ehtiyatlı mövqe seçib. Ekspert xatırladıb ki, neftin bir barelinin qiyməti keçən il 45 dollar, bu il isə 50 dollar götürülmüşdü. Yəni cəmi 5 dollar artırılmışdı:** "Bu, çox yaxşı siyasətdir. Məhz bu siyasətin nəticəsidir ki, keçən il dövlət büdcəsinə neftdən iki dəfə çox gəlir daxil oldu. Artıq cari ilin yarısı başa çatmaqdadır və yenə də neftdən iki dəfə çox gəlir əldə etmişik. Keçən il Dövlət Neft Fondundan büdcəyə nəzərdə tutulmuş transfert məbləği tam yerinə yetirilmədi, çünki buna ehtiyac qalmadı. Ötən il Fonddan büdcəyə təxminən 6 milyard 200 milyon manatın transferti nəzərdə tutulmuşdu. Dövlət büdcəsinin dürüstləşdirilməsi nəticəsində Fonddan büdcəyə transfertlərin məbləği nəinki artırılır, əksinə, azalmağa doğru gedir. Belə şəraitdə hökumətin büdcədə nəzərdə tutulan neftin qiymətini 20-30 dollar artırmağı planlaşdırması başadüşüləndir. Yaxın perspektivdə neftin qiymətinin kəskin enəcəyi gözlənilmir. Xüsusən, son iki ildə büdcəyə neftdən daha artıq gəlir gəlməsi hökuməti neftin qiymətinə yenidən baxmağa sövq edir. Buna zərurət yaradır. Sonrakı dönəm üçün neftin qiymətinin bir barelinin 85 dollara çatdırılması riskli deyil. Bununla əlaqədar forsmajor halların olacağı gözlənilmir".

**İsmayıl**

# Təmiz meyvə və tərəvəz tapmaq müşkülə çevrilib

## Bir vaxtlar şəfa mənbəyi olan bitki səltənəti indi böyük bəla mənbəyinə çevrilib

**Meyvə-tərəvəz alan zaman diqqət edilməsi vacib olan məqamlara toxunan "Ana Təbiət" NGM-nin rəhbəri Ərşad Əzimzadənin araşdırmasına görə, insanın sağlamlığını təmin edən 4 qida var: Günəş enerjisi, hava, su və bitki səltənəti. Onun sözlərinə görə, bitki səltənətinə meyvələr, yabanı meyvələr, tərəvəz, göy-göyərti, çiçəklər, yarpaqlar və zoğlar daxildir. Şəhər və qəsəbələrdə yaşayan sakinlər bunların hamısını bazardan və ya dükandan almalı olur: "Əminəm ki, bazara və ya marketə gedən alıcının 90 faizdən çoxunun gözü yekə, "tavarnı vidi" gözəl olan meyvələri və tərəvəzi axtarır və çətinlik çəkmədən tapır.**

Çünki bağban da, tərəvəzçi də, "xırçı" da çalışır ki, alıcının gözünü oxşayan yaraşıqlı məhsul hazırlasın. Bunun yolunu da tapıblar. Bəzi qadınlar dodaqlarını və başqa yerlərini kimyanın gücünə şişirdən kimi, quşçular toyuqların çəkisini süni yollarla artırdığı kimi, bağbanlar və tərəvəzçilər də kimyəvi preparatların köməyi ilə məhsulun çəkisini artırır və "vidini" dəyişirlər.

Heç kəsin vecinə deyil ki, bu gün bazarları geni dəyişdirilmiş bitki məhsulları basıb. "Yaraşıqlı" meyvələri və tərəvəz növlərini, bostan məhsullarını yeyən insanlar onlardan şəfa yox, bəla alır. Qan zəhərlənir, qaşınma yaranır, digər fəsadlar baş verir. Bütün hallarda səbəbə qarşı deyil, nəticəyə qarşı "vuruşan" qəssab həkimlər də böyük həvəslə "müştərinin" cibinə girir: "Səndə filan meyvəyə qarşı allergiya var, onu yemə. Filan dərmanı qəbul elə". Ən çox həkim tabusuna məruz qalan növ subtropik meyvələr olur - insanları mikroblardan qoruyan C vitamini ilə





çox zəngin olan qida".

**Ə.Əzimzadənin sözlərinə görə, `yalnız böyük qazanc haqqında düşünən insafsız bağbanların, tərəvəzçilərin, bostançıların və onlarla cinayət əlaqəsinə girən nəzarətçilərin bəd əməli sayəsində, bir vaxtlar şəfa mənbəyi olan bitki səltənəti indi böyük bəla mənbəyinə çevrilib. Bu gün ekoloji cəhətdən təmiz meyvə və tərəvəz tapmaq müşkül işdir:** "Mən bunun günahını istehlakçının özündə görürəm. Əgər alıcı bazarda iri, yaraşıqlı meyvə və tərəvəz seçirsə, satıcı da ərzaq dalınca kəndə gedəndə, mütləq gözəgəlimli məhsul axtaracaq. Belə olduqda, kəndli çalışacaq ki, becərdiyi məhsulu "yaraşıqlı" olsun. Bunun da yolu bəllidir: ağaclara çoxlu kimyəvi gübrə vermək, xəstəlik və həşərat əleyhinə çoxlu dərman vurmaq. Bu da artıq ənənəyə çevrilib ki, baha satılsın və uzun müddət qalsın deyə, meyvələri kütləvi şəkildə kal-kal dərib, onlara dərman vururlar. Həyəcan təbili çalmaq vaxtı çoxdan çatıb - hava, torpaq və su zəhərlənib, bitki səltənəti narkomana çevrilib, alıcının zövqü korlanıb, xəstəliklər güclənib, dünya səhiyyə sistemi mikrob qarşısında tam aciz qalıb. Üstümüzə gələn böyük fəlakətin qarşısını almağın yeganə yolu - istehlakçının düzgün seçim etməsidir. Qoy, meyvə və tərəvəzin gözəl zahiri görkəmi sizi aldatmasın. Yerli növlərə üstünlük verin. Üzümü kənd əhlinə tutub, xahiş edirəm: qoymayın qədim bitki növlərini itib-batsın, onları bərpa edin. Əsrlərin sınağından keçib gəlmiş növlər, meşələrdəki yabanı meyvələr qədər, xəstəliklərə davamlıdır. Nəzərə alın ki, siz alıcıları zəhərləməklə bərabər öz əzizlərinizi də zəhərləyirsiniz və qazandığınız pulu həkimlərə, dərmanlara xərcləməli olursunuz".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu**



# QHT-lər tərif siyasətindən tənqid siyasətinə keçməlidir

## Onlara aktivləşməsi və vətəndaş cəmiyyətini layiqli təmsil etmələri üçün müstəqillik verilməlidir

**Bakıda Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə "QHT-dövlət əməkdaşlığında yeni çağırışlar: ictimai nəzarət mexanizmlərinin gücləndirilməsi" adlı sonuncu respublika zona konfransı keçirilib.**

Toplantıda Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva, Agentliyin Müşahidə Şurasının üzvləri, Bakı şəhərinin 12 rayonu, eləcə də Sumqayıt, Abşeron, Şuşa, Zəngilan, Qubadlı rayon icra hakimiyyəti başçılarının müavinləri, Vətən müharibəsi veteranları və şəhid ailələri ilə işin təşkili şöbələrinin müdirləri, icra hakimiyyətləri yanında fəaliyyət göstərən ictimai şuraların üzvləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri və media nümayəndələri iştirak ediblər. Bakı Gənclər Mərkəzində təşkil edilən konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra tədbirin moderatoru Elnur Bağırlı konfransı açıq elan edərək, tədbirin proqramı haqqında məlumat verib. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva qeyd edib ki, hər bir ölkənin inkişafını təmin edən ən mühüm amillərdən biri dövlətlə cəmiyyət arasında münasibətlərdə ahəngdarlığın təmin edilməsidir: "Dövlətin həyata keçirdiyi islahatlara milli maraqların təmin olunması naminə ictimai dəstəyin göstərilməsi vahid məqsədə çatmaq üçün önəmlidir. Təbii ki, ictimai dəstək və nəzarət mexanizminin formalaşdırılması dövlət tərəfindən müvafiq addımların atılması və cəmiyyət nümayəndələrinin adekvat reaksiya verməsindən birbaşa asılıdır". Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev isə dövlət və cəmiyyət həyatında qeyri-hökumət təşkilatlarının rolunun artırılmasının önəmindən danışıb. O bildirib ki, may ayından etibarən bütün iqtisadi zonalarda baş tutan konfranslar uğurla yekunlaşıb: "Bütün zona konfranslarının yekunu olaraq QHT-lər və ictimai şuralar öz fəaliyyətlərində dönüş yaratmalı, cəmiyyətin və dövlətin həyatında fəal iştirak etməli, qarşıya çıxan çatışmazlıqların aradan qaldırılmasında dövlət orqanlarının fəaliyyətinə dəstək göstərməlidir. İctimai Şuraların fəaliyyəti, əsasən, cəmiyyətlə qarşılıqlı əlaqələrin gücləndirilməsindən, sağlam dialoqun qurulmasından, qərarların qəbulunda ictimai rəyin, vətəndaş maraqlarının nəzərə alınmasından ibarətdir və onların fəaliyyətində şəffaflığın, hesabatlılığın təmin edilməsi, təcrübəli QHT-lərin bu prosesə cəlb edilməsi vacib amildir". Digər çıxış edənlər bildiriblər ki, zona toplantısı QHT nümayəndələri, ictimai şuraların üzvləri, habelə dövlət qurumları üçün faydalı olacaq və bu sahənin daha da təkmilləşməsinə böyük töhfə verəcək. Qeyd edilib ki, ictimai nəzarətin həyata keçirilməsi məqsədilə ardıcıl tədbirlər təşkil edilməli, bu xüsusda sosial medianın imkanlarından istifadə edilməlidir. Çıxışlardan sonra konfrans interaktiv müzakirələr əsasında davam edib, Bakı üzrə iştirakçıların təklifləri dinlənilib, sualları cavablandırılıb.

**Zona konfransı və müzakirə olunan məsələlərin əhəmiyyəti barədə "Şərq"lə fikirlərini bölüşən Vətəndaş Cəmiyyətinə Yardım Assosiasiyası Seçki Qərargahının rəhbəri, professor Məhərrəm Zülfüqarlı qeyd etdi ki, ictimai nəzarət demokratiyanın əsas göstəricilərindən biridir:**

- Qeyri-hökumət təşkilatlarının özü ictimai nəzarət funksiyasını yerinə yetirən vətəndaş institutu təsisatıdır. Dövlətlə vətəndaş arasında körpü yaradan da qht-lər - ictimai təşkilatlardır. Yəni əslində, belə olmalıdır. Müxtəlif dövlət orqanları nəzdində yaradılan ictimai şuralar məhz bu məqsədə xidmət etməlidir. İctimai Şuralar hansısa komitənin, nazirliyin bir qolu, əlavəsi kimi fəaliyyət göstərməməlidir. Vətəndaşların maraqlarına xidmət etməli, vətəndaş cəmiyyətinin çağırışlarını dövlət orqanlarına çatdıran və problemin həllinə çalışan təsisat olmalıdırlar. İctimai şuralar nazirliklərin fəaliyyətini tənqid etməlidir, çatışmayan cəhətləri göstərməli, problemləri dilə gətirməlidir. İctimai şuralar qeyri-hökumət təşkilatları kimi vətəndaş cəmiyyətinin bir parçası olmalıdır. Diqqət etdim ki, həmin zona konfransında qht-lərin aktivləşməsi, dövlət-cəmiyyət həyatında fəal iştirak etmələri tövsiyə olunub. Hazırda ölkədə yüzlərlə ictimai birlik, təşkilat fəaliyyət göstərir. Əksəriyyəti də müəyyən layihələrdə iştirak edir, vətəndaş cəmiyyətinin hansısa problemi ilə bağlı layihələr həyata keçirirlər. Amma bu, kifayət etmir. QHT-lərin aktivləşməsi və vətəndaş cəmiyyətini layiqli təmsil etmələri üçün onlara müstəqillik verilməlidir. Biz indiyədək hansısa qht-nin bir dövlət orqanını, nazirliyi tənqid etdiyini görməmişik. Halbuki, tənqid işin daha yaxşı icrası, problemlərin həlli üçün təkandır. Hansısa dövlət komitəsi, nazirlik işin harada axsadığını bilmirsə, o çatışmazlığı necə aradan qaldıra bilər? Bunu da vətəndaş cəmiyyəti, qhtlər etməlidir. QHT-lər tərif siyasətindən tənqid siyasətinə keçməlidir. Sevindirici olan budur ki, ölkədə xalqın ictimai nəzarəti var. Görürük ki, proseslərə, hadisələrə ictimaiyyət tərəfindən çevik reaksiyalar verilir. Bu, çox yaxşıdır. Demokratik cəmiyyət məhz belə olmalıdır. Amma qht-lərin fəaliyyətində bu, o qədər də müşahidə edilmir. Məsələn, bələdiyyə sistemini götürək. Bələdiyyələr faktiki icra hakimiyyətlərinin bir qoluna çevrilib. Halbuki, bələdiyyə strukturu müstəqil, sərbəst idarəçilik metodudur. Bələdiyyə özü vətəndaş cəmiyyətinin bir parçasıdır. Lakin icra hakimiyyətlərinin bir parçası kimi fəaliyyət göstərir. Qanunlar bələdiyyələrin yüksək statusunu təsdiqləyir. Lakin reallıqda bələdiyyələr asılı quruma oxşayır. Bu problem təcili həllini tapmalıdır. İşlək mexanizmlər olmalıdır ki, ictimai nəzarət funksiyası axsamasın. Vətəndaş cəmiyyəti institutları dövlətə əlavə yük olmasınlar, dövlət idarəçiliyinə dəstək olan qurum kimi fəaliyyət göstərsinlər.



***Dövlət-cəmiyyət münasibətlərinin ahəngdarlığı ölkənin inkişafını təmin edən mühüm amildir***

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Meyvə-tərəvəz dəllalların əlinə keçdiyinə görə bahalaşıb

## "Kənddən Şəhərə" yarmarkalarının keçirilməsində əsas məqsəd paytaxtda məhsulların bolluğunu yaratmaqdır



***"Kəndli becərdiyi məhsulu özü yarmarkaya gətirib satışa çıxarsa əldə edər. Zəhmətinin bəhrəsini həm özü görər, həm də vətəndaşlar ucuz və keyfiyyətli məhsul əldə edər"***

**Kənd Təsərrüfatı Nazirliyi iyunun 25-26-da Bakıda və Abşeronda "Kənddən Şəhərə" yarmarkaları təşkil edəcək. Yarmarkalar üç fərqli ünvanda keçiriləcək.**

Məqsəd yerli fermer təsərrüfatları üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini təbii, mövsümi və sağlam kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir. Qeyd edək ki, "Kənddən-şəhərə" yarmarkaları artıq ənənəvi hal alıb. Xüsusilə də bayramqabağı günlərdə, əlamətdar tarixlərdə, həmçinin payız-yay mövsümündə kənd təsərrüfatı yarmarkalarının təşkilində əsas məqsəd həm paytaxt sakinlərinin tələbatını qarşılamaq, uyğun qiymətə təzə, keyfiyyətli məhsullar əldə etmək, həm də fermerlərin, sahibkarların qazanc əldə etməsinə, becərilən məhsulun ilk əldən satışa çıxarılmasına və məhsulun əsl sahibinin gəlir əldə etməsinə yardım göstərməkdir.

Bu da ölkədə sahibkarlığa və liberal iqtisadiyyata dəstəyin bariz nümunəsidir. Liberal iqtisadiyyatın inkişafı üçün sahibkarlığın inkişafı əsas şərtdir. Kənd Təsərrüfatı Nazirliyi isə bunu bölgələrdə fermer təsərrüfatı olan, tərəvəzçilik, bostançılıqla məşğul olan yerli əhalinin becərdiyi məhsulu sərbəst şəkildə bazara çıxarmasına yardım etməklə göstərir.

"Kənddən Şəhərə" həftəsonu yarmarkalarında ümumilikdə 100-ə yaxın fermer 50-ə yaxın regionu təmsil edəcək. Fermerlər 100-ə yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsullarını satışa çıxaracaqlar.

Yarmarkalarda satışa çıxarılan məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Belə ki, yarmarkada Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar satışa çıxarılan hər hansı bir məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən faydalana biləcəklər.

**Kənd təsərrüfatı yarmarkalarının təşkili ilə bağlı "Şərq"ə danışan iqtisadçı-ekspert Rauf Qarayev bunun müsbət hal olduğunu, lakin bəzi məsələlərə diqqət edilməsinin vacibliyini vurğulayıb:** "Kənddən Şəhərə" yarmarkalarının keçirilməsində əsas məqsəd paytaxtda kənd təsərrüfatı məhsullarının bolluğunu yaratmaq və qiymətlərin ucuzlaşmasına nail olmaqdır. Bundan əlavə, yarmarka təşkilatçılarının əsas vəzifəsi məhsulun satışının fermerin özünün təşkil etməsinə çalışmaqdır. Yarmarkanın əsas qayəsi budur ki, yarmarkalarda sahibkarlar, fermerlər piştaxta arxasında dayansın, alverçilər yox. Yarmarkaların müsbət tərəflərindən biri də budur ki, fermerlər üçün tamamilə ödənişsiz şəkildə təşkil olunacaq. Yəni yarmarkada iştirak edəcək fermerlər heç bir ödəniş etmədən piştaxta, tərəzi və digər avadanlıqlarla təmin olunurlar. Hətta məhsullarını yarmarka ünvanlarına çatdırmaqda çətinlik çəkən fermerlərə loqistik dəstəyin də göstərilməsi pis olmazdı".

**İqtisadçının fikrincə, bu cür yarmarkalarda dəllalların, məhsulları fermerlərdən ucuz qiymətə alıb Bakıda baha qiymətə satan alverçilərin iştirakına icazə verilməməlidir:** "Hər kəndli iri şəhərlərin bazarlarına çıxmaq, öz yetişdirdiyi məhsulun satışını təşkil etmək iqtidarında olmadığı üçün alverçilər bundan istifadə edir. Halbuki, kəndli becərdiyi məhsulu özü yarmarkaya gətirib satışa çıxarsa tutarlı qazanc əldə edər. Zəhmətinin bəhrəsini həm özü görər, həm də vətəndaşlar ucuz və keyfiyyətli məhsul əldə edər. Kəndli əziyyət çəkərək əkib-becərdiyi məhsulun satışını özü etməlidir. Bu, kəndliyə - fermerə qazanc əldə etmək, becərdiyi məhsuldan gəlir götürmək imkanı yaradır, məhsul becərməyə həvəsini, həm də marağını artırır, əlavə stimul verir".

R.Qarayevin sözlərinə görə, kənd təsərrüfatı məhsullarının rayonlarda ucuz, Bakıda baha olmasının əsas səbəbi də məhz sahibkarlıq fəaliyyəti ilə məşğul olan insanların əməlidir. Kəndli nə qədər çox əziyyət çəksə də, məhsulu əhali üçün alçatan qiymətə satır. İşbazlar, alverçilər isə daha çox qazanmaq üçün insanların "cib"inə, kəndlilərin haqqına girir.

**İqtisadçı onu da deyib ki, kənar şəxslərin bu cür yarmarkalara müdaxiləsinə məhz Kənd Təsərrüfatı Nazirliyi tərəfindən nəzarət olunmalıdır.**

Bu cür yarmarkaların təkcə paytaxtda deyil, digər şəhər mərkəzlərində də təşkili edildiyini vurğulayan ekspert qeyd edib ki, bəzi sahibkarlar erkəndən bazarda öz yerini tutur ki, fermerlərin gətirdiyi məhsulların hamısını ucuz qiymətə alıb, gün ərzində bazarlıq edən alıcılara daha baha qiymətə satsınlar: "Çünki kəndlərdən şəhər bazarlarına məhsul gətirən şəxslərin axşama qədər piştaxta arxasında dayanıb məhsullarını satmaq imkanı olmur. Onlar 2-3 saat ərzində gətirdikləri məhsulu satıb qayıtmağa çalışır. Ona görə də bəzi hallarda fermerlər gətirdikləri məhsulu bir əldən başqa birisinə satıb rayona, kəndə qayıdır. Belədə yarmarkanın mahiyyəti pozulmuş olur. Məhsul ikinci, üçüncü ələ keçir. Qiymət də artır. Bu mənada yarmarkaların təşkili zamanı qarşıya qoyulan məqsədə nail olunması üçün fermerlərə hərtərəfli şərait yaradılmasının tərəfdarıyam".

**Şəymən**



# Ən yaxşı yağlar zeytun və qarğıdalı yağlarıdır

## Qida mütəxəssisi: "Satışda insan orqanizmi üçün zərərli olan, doymuş bitki yağlarına, marqarin və ucuz kərə yağlarına rast gəlinir"

**Ölkəmizdə ərzaq məhsullarının qiymətində ciddi artım baş verib. Bahalaşma demək olar ki, bütün məhsullarda müşahidə olunur. Yağ, qənd, şokolad, meyvə-tərəvəz və digər ərzaqlar əvvəlki qiymətindən xeyri dərəcədə fərqlənir.**

Zaman-zaman süni qiymət artımının rast gəlsək də, bütün növ məhsulların bahalaşması mövcud durumun ciddiliyindən xəbər verir.

Həyat üçün əhəmiyyətli sayılan ərzaq məhsullarının bahalaşması əhali tərəfindən birmənalı qarşılanmır. Çünki elə məhsul var ki, qiyməti artıq bir neçə dəfə bahalaşıb.

Gündəlik tələbat məhsulları arasında əsas yer tutan qida məhsullarından biri də yağdır. Hazırda marketlərdə satışda olan kərə və bitki yağları da əvvəlki qiymətlərindən xeyli baha satılır. Vətəndaşların iddiasına görə, qiymətlər əvvəllər 5-10 qəpik bahalaşırdısa, indi 2-3 manat dərəcəsində hiss olunur. Son nəticədə onsuz da aylıq xərclərini bu aydan o biri ayın başına qədər güclə çatdıran vətəndaş üçün keyfiyyətli yağ almaq müşkülə çevrilib. Əlacsız qalan alıcıların imkanı isə ucuz qiymətə satılan, mənşəyi belə məlum olmayan yağları almağa çatır. Hansı ki, qida mütəxəssisləri adi selofanla paketlənib müxtəlif adlarla satılan trans yağların onkoloji və digər xroniki xəstəliklərə gətirib çıxarması barədə gecə-gündüz həyəcan təbili çalırlar.

**Qida mütəxəssisi Ağa Salamov "Şərq"ə açıqlamasına görə, insan orqanizmi üçün faydalı olan yalnız doymuş yağlardır.** Yağlılıq dərəcəsindən asılı olaraq 20-25 litr süddən əldə edilmiş kərə, nehrə yağları doymuş sağlam yağlar hesab olunur və onların insan orqanizmi üçün heç bir zərəri olmur. Bunlar insan orqanizmində mənimsənilir, əvəzolunmaz yağ turşularını ödəyirlər.

Təbii yağlar doymuş və orqanik olduğu üçün heyvan mənşəli qidalar ancaq bu yağlarla bişirilməlidir.

*Ekspertin fikrincə, satışda insan orqanizmi üçün zərərli olan, doymuş bitki yağlarına, marqarin və ucuz kərə yağlarına da rast gəlinir.* Belə yağlar yüksək temperaturda qızdırılıb, hidrogenlə doydurub, rəngləndirici və dadlandırıcı maddələr qatıldığı üçün insan orqanizminə faydası yoxdur: "Əksinə, marqarin yağları bədəndə əriməyib üzün qəraciyərdə birbaşa zərərli xolesterinlər əmələ gətirir. Ən yaxşı yağlar tərkibində heç bir kimyəvi qatqı olmayan soyuq sıxma ilə toplanan zeytun, qarğıdalı kimi bitki yağlarıdır. Zeytun yağları bitki mənşəli duru yağ olduğu üçün bitki mənşəli yeməkləri, xüsusən də tərəvəzləri onunla qızartmaq olar. Bitki yağlarının arasında yalnız zeytun yağı istiliyə dözümlüdür. 250 dərəcəyə çatsa belə trans yağa çevrilmir. Ona görə də kənd təsərrüfatı sahəsini genişləndirib bitki və heyvan mənşəli sağlam doymuş yağların istehsalını artırmaq lazımdır".

**Şəymən Bayramova**

# Yayda ürəyi qorumağın yolları

## Mütəxəssislər təsirli vasitələri sadalayıb





(Əvvəli səh: 8-də)

**Yay ayları ürək xəstələri üçün təhlükəli dövr hesab olunur. Əlbəttə ki, səbəb havaların istiləşməsi, temperatur yüksəkliyidir. Havaların istiləşməsi qanın qatılaşmasına səbəb olur ki, bu da qan dövranını çətinləşdirir, ürəyin ritmini pozur, nəticədə infarkt təhlükəsi artır. Lakin təhlükə təkcə ürək xəstələri üçün deyil, ümumilikdə hamı üçündür.**

Havaların istiləşməsi hətta sağlam insanları təhlükə altında qoya bilər. İstilərdən qorunmağın, ən əsası da ürəyi qorumağın yollarını türkiyəli kardioloq, professor Ahmet Karabulut açıqlayıb. "Şərq" "NTV.com.tr"yə istinadən professorun tövsiyə etdiyi 12 qoruma vasitəsini təqdim edir. Professor ilk növbədə isti havalarda su qəbulunun artırılmasını tövsiyə edir. Yay aylarında isti hava səbəbiylə bədən su itkisinə məruz qalır. Bədəndə toplanmış su ehtiyatı tər vasitəsiylə xaric olur. Bunu nəzərə alaraq gün ərzində 10 stəkan adi, təbii su içilməsi məsləhətdir. Bol miqdarda su içmək qanda qatılığın qarşısını alır, nəfəs darlığı aradan qalxır, ürək döyüntülərini sakitləşdirir, ürək sakit ritmlə döyünür. İsti havalarda bol su qəbul etmək orqanizmin dirənişini artırır. İkincisi, axşam yeməyinin vaxtı saat 21:00-dan ötməməlidir. Axşam saat 21:00-dan sonra qəbul edilən şam yeməyi qanda şəkərin miqdarını artırıb, qan təzyiqini yüksəldə bilər. Günəş şüasından uzaq durmaq, uzun müddət günəş şüaları ilə təmasda olmamaq da səhhəti qorumağın əsas şərtlərindəndir. Günəş şüasıyla uzunmüddətli təmas damar sərtliyinə, qanın qatılaşmasına səbəb olur. Xüsusilə günəşin yüksəldiyi saatlarda küçəyə çıxmamaq məsləhətdir. Əgər məcburiyyət varsa, o zaman mütləq istənilən formada baş örtüyündən istifadə etmək, çətir götürmək, ağ, açıq rəngli və təbii parçalardan tikilmiş libaslar geyinmək məsləhətdir. Günəş şüaları tünd rəngli parçalar üzərində daha yavaş hərəkət edir deyə, insan uzun müddət istiyə məruz qalır. Ağ, açıq rəngli parçalar isə günəş şüalarını geri qaytarmaq xüsusiyyətinə malikdir. Ona görə də bu cür libaslar insanı çox tərlətmir, bədənin rahat nəfəs almasını təmin edir. İsti havalarda çay və qəhvə kimi tərkibində kofein maddəsi olan içkilərə çox meyl etməmək gərəkir. Çünki kofeinli içkilər sidikqovucu təsirə malik olduğundan bədən su itkisinə daha çox məruz qalır. Qazlı içkilərdən də həmçinin uzaq durmaq lazımdır. Ən yaxşısı, meyvə suyu, ayran kimi təbii, sərinləşdirici içkilərdir. Alkoqollu içkilər və siqaret real təhlükə mənbəyidir. Ürəyin ritmini pozur və infarkta yol açır. Əlbəttə ki, kimyəvi qatqılı qidalar, şirniyyat, yağlı yeməklər də məsləhət deyil. Tərəvəzlərə, təzə meyvələrə, mədəyə ağırlıq verməyəcək yüngül yeməklərə üstünlük verilməlidir. İsti havalarda normal yuxu da əsas şərtdir. Yuxusuzluq ürəyin ritmini pozur, qanda şəkəri və xolesterolun miqdarını artırır, beynin aktivliyini zəiflədir. Yay aylarında gecə saatlarının azaldığını diqqətə alaraq yatmaq vaxtını irəli çəkmək lazımdır ki, heç olmasa, 7 saat normal yuxu almaq mümkün olsun. Üzməyi sevənlər də diqqətli olmalıdır. Xüsusilə soyuq dəniz sularında uzun müddət üzmək orqanizmin normal temperaturunun aşağı düşməsinə, nəticə etibarilə ürək ritminin pozulmasına, qan təzyiqinin düşməsinə, hətta ürəyin dayanmasına da səbəb ola bilər. Sağlamlıq üçün gün ərzində fasilələrlə, ümumilikdə 30 dəqiqə üzmək yetərlidir. Ürək çatışmazlığı olanların şaquli istiqamətdə deyil, sahilə paralel şəkildə üzmələri məsləhətdir.

**Məlahət Rzayeva**



# Həkim dönər zəhərlənmələrilə bağlı xəbərdarlıq edib

## Mayonez kimi məhsullar daimi olaraq soyuducuda saxlanılmadığına görə öz keyfiyyətini itirir

**Bəzi ictimai-iaşə obyektlərində soyuq zəncirvari sistem qorunmur. Bu səbəbdən də yay aylarında qida zəhərlənmələri artır.**

"Report"un xəbərinə görə, Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinin həkimi Aynur Məmmədova bildirib ki, xüsusi ilə dönər və digər "fast-food" satışı həyata keçirilən yerlərdə bu qaydalara əməl olunmur:

"Dönərxanalarda ət, mayonez kimi məhsullar daimi olaraq soyuducuda saxlanılmadığına görə öz keyfiyyətini itirir. Yay aylarında bütün məhsullar qısa zamanda xarab olur. Belə risklərə görə gigiyenik normativlərə tam əməl olunmalıdır. Yaxşı olar ki, yay aylarında dönər və digər ayaqüstü qidalardan mümkün qədər az istifadə edilsin. Çünki adi halda insanlar dönərin və ya bu tipli qidaların hazırlandığı məhsulların keyfiyyətini öyrənə bilməz. Bu səbəbdən də mümkün qədər ehtiyatlı olmaq lazımdır".

Ehtiyatı əldən verən və zəhərlənən insanlara tibbi yardımlar fərqli tətbiq olunmalıdır. Həkim A.Məmmədova sözlərində görə, belə hallarda böyüklərə və uşaqlara ayrıca yanaşma tələb olunur:

"Uşaqlarda zəhərlənmə baş verdiyi zaman çəkisinə uyğun olaraq, hər 10 kiloqrama 1 ədəd aktivləşdirilmiş kömür verilməlidir. Ev şəraitində uşağın mədəsinin yuyulmasını tövsiyə etmirəm. Zəhərlənən uşağa bol miqdarda maye verilməlidir. Əgər əlamətlər keçərsə, növbəti gün sahə pediatrına müraciət edilə bilər. Əks halda uşaq dərhal xəstəxanaya çatdırılmalı və ona ilkin tibbi yardım göstərilməlidir. Yetkin insanlarda zəhərlənmə baş verdiyi zaman 10 ədəd aktivləşdirilmiş kömür əzib içmək lazımdır. Həmçinin bol miqdarda maye qəbulu vacibdir. Böyüklərdə qida zəhərlənməsi baş verdiyi zaman ev şəraitində mədəni yumaq və imalə etmək olar. Lakin bütün hallarda ən doğru addım zamanda həkimə müraciət etməkdir.

Zəhərlənmələrdən yayınmaq üçün qidaların satın alınması, hazırlanması, bişirilməsi və saxlanması qaydalarına, o cümlədən gigiyenaya diqqət edin!"

# Xaricdə verilmiş sürücülük vəsiqələri 1 ay ərzində dəyişdirilməlidir

## Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna bilməz

**Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən verilən xəbərə görə, iclasda Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 35-1-ci maddəsinin həmin Qanunun 33-cü, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 263-1-ci və Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 332-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim H. Əfəndiyevanın məruzəsini, maraqlı subyektlərin nümayəndələri Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi A. Osmanovanın və Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri H. M. Seyidin, mütəxəssislər Ali Məhkəmənin Cinayət Kollegiyasının sədri H. Nəsibovun, Bakı Apellyasiya Məhkəməsinin hakimi H. Məmmədovun, Dövlət Miqrasiya Xidmətinin Baş idarə rəisi A. Xudiyevin, Daxili İşlər Nazirliyi və Vəkillər Kollegiyası tərəfindən təqdim edilmiş mülahizələri, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti S. Əliyevin rəyini və işin materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, yol hərəkətinin tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş və etibarlıq müddəti qurtarmamış sürücülük vəsiqəsinə malik olan Azərbaycan Respublikasının vətəndaşı və Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə alan şəxslər "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 35-1-ci maddəsinin müvafiq tələblərinə əməl etmədikdə, həmin Qanunun 33-cü maddəsinin V hissəsinə əsasən hüququ məhdudlaşdırılmış şəxs kimi nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs hesab edilir.

Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə alan şəxslərin "Yol hərəkəti haqqında" qanunun 35-1-ci maddəsinin tələblərinin yerinə yetirilməməsinin hüquqi nəticələri barədə xəbərdar edilməsi Dövlət Miqrasiya Xidmətinə tövsiyə edilsin.



Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

Qeyd edək ki, "Yol hərəkəti haqqında" qanunun 35-1-ci maddəsi aşağıdakı kimidir: Xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş sürücülük vəsiqəsi - Azərbaycan Respublikasının vətəndaşı yol hərəkətinin tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş və etibarlıq müddəti qurtarmamış sürücülük vəsiqəsi əsasında Azərbaycan Respublikası ərazisində nəqliyyat vasitələrini ölkə ərazisinə daxil olduğu gündən bir ay ərzində idarə etmək hüququna malikdir.

Azərbaycan Respublikasının vətəndaşı ölkə ərazisində nəqliyyat vasitələrini həmin müddətdən artıq idarə etmək üçün sürücülük vəsiqəsini bu Qanunun 35-ci maddəsinin VI-VIII hissələrində müəyyən edilmiş qaydada dəyişdirməlidir.

- Azərbaycan Respublikasında müvəqqəti olan əcnəbi və ya vətəndaşlığı olmayan şəxs yol hərəkətinin tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş və etibarlıq müddəti qurtarmamış sürücülük vəsiqəsi əsasında Azərbaycan Respublikası ərazisində nəqliyyat vasitələrini idarə etmək hüququna malikdir. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə aldıqda, ölkə ərazisində nəqliyyat vasitələrini idarə etmək üçün sürücülük vəsiqəsini həmin icazəni aldığı gündən bir ay müddətində bu Qanunun 35-ci maddəsinin VI-VIII hissələrində müəyyən edilmiş qaydada dəyişdirməlidir.

- Bu Qanunun 35-1-ci maddəsinin I və II hissələrində nəzərdə tutulmuş hallarda sürücülük vəsiqəsi dəyişdirildikdə, xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş sürücülük vəsiqəsi yeni sürücülük vəsiqəsi ilə birlikdə həmin şəxsə qaytarılır. Qərarda qeyd edilən 33-cü maddənin V hissəsi isə aşağıdakı kimidir: Azərbaycan Respublikasının ərazisindəki yollarda hər hansı fiziki şəxsin nəqliyyat vasitələrini idarəetmə hüququ yalnız aşağıdakı hallarda müvəqqəti məhdudlaşdırıla bilər:

1) şəxsin sürücülük vəsiqəsinin etibarlıq müddəti qurtarıbsa - sürücülük vəsiqəsi dəyişdirilənədək;

2) şəxs tərəfindən yol hərəkətinin qaydaları bu Qanunla müəyyən edilmiş hallarda kobud surətdə pozulmuşdursa - Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada beş ildən artıq olmayan müddətin qurtarmasınadək;

3) şəxsdə bu maddənin üçüncü hissəsində nəzərdə tutulmuş xəstəliklər və ya fiziki qüsurlar müəyyən edilərsə - xəstəlik müalicə olunanadək və ya fiziki qüsur aradan qaldırılanadək.

# Gəncədə ər 25 yaşlı arvadını öldürüb



**Gəncədə 25 yaşlı qadın əri tərəfindən qətlə yetirilib.**

DİN-in Mətbuat Xidmətinin Gəncə regional qrupu xəbər verir ki, iyun ayının 23-də günorta radələrində Gəncə şəhər Baş Polis İdarəsinə şəhər sakini 1997-ci il təvəllüdlü Aynurə Bayramovaya şəhər ərazisində bıçaqla qətlə yetirilməsi barədə məlumat daxil olub. Dərhal polis və şəhər prokurorluğunun əməkdaşları hadisə yerinə gələrək müvafiq araşdırmalar həyata keçirib. Polis əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində cinayəti törətməkdə şübhəli bilinən, A. Bayramovanın həyat yoldaşı Rauf Vəliyev isti izlərlə saxlanılaraq istintaqa təhvil verilib. Fakta bağlı Gəncə şəhər Prokurorluğunda cinayət işi başlanıb araşdırmalar davam etdirilir.

**Elan**

"Main Development" MMC tərəfindən Həmzəyeva Ofelya Gülcan qızına verilmiş bina 2, mənzil 28-ə aid Müqavilə və Maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

"Unimetal" MMC-yə məxsus möhür itdiyi üçün etibarsız sayılır.

Elan Spektrum Qapalı Səhmdar Cəmiyyəti Məhdud Məsuliyyətli Cəmiyyət formasında yenidən təşkil edilir. Spektrum Qapalı Səhmdar Cəmiyyətinin borcları və öhdəlikləri üçün bütün məsuliyyət Spektrum Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən tam həcmdə qəbul edilir.



# Geyimini hədiyyə paketinə bənzətdilər

## Damlanın libası izləyicilərin tənqidinə məruz qaldı

**"Damla" ləqəbi ilə şou-biznesdə məşhurlaşan müğənni Məsumə Məmmədova geyimi ilə yenə də "ağızlarda saqqız" olub.**

Bizim.media xəbər verir ki, sənətçi qatıldığı toy məclislərinin birinə geyindiyi dekolteli, diz hissəsi isə böyük həcimli mavi bant dekorlu libası sosial şəbəkədə müzakirə predmetinə çevrilib.

Ekstraordinar geyimləri ilə dillərə düşən Damlanın bu libası da izləyicilərin tənqidinə məruz qalıb. Onlar müğənnini "hədiyyə qutusu"na, "hədiyyə paketi"nə bənzədiblər.

Qeyd edək ki, bir neçə həftə əvvəl Damla Naxçıvandakı konsertinə geyindiyi yaxasız pencək və ön plana çıxan daş-qaşlarla bəzədilmiş büstqalterli geyimi izləyicilərin qınağına tuş gəlmişdi.

# Sakitləşdirir və yuxu gətirir

## Mayaotu qozasından bir çox xəstəliklərin müalicəsində istifadə olunur

**Mayaotu qozası və ya mayasarmaşığı qozası (şərbətçiotu) iltihab əleyhinə, ağrıkəsici, bakterisid, antiallergik vasitə kimi iltihabi əlamətlər, allergik səpgilər, qaşınma və s. ilə müşayiət olunan dəri xəstəliklərində istifadə olunur.**



Qozaların dəmləməsi saçların kökünü bərkitmək, kəpəyi təmizləmək, sızanaqları və xeyliti müalicə etmək üçün tətbiq olunur. Sakitləşdirici və zəif yuxugətirici vasitə kimi yüksək sinir oyanıqlığında, yuxu pozğunluğunda, vegetativ-damar distoniyasında, klimakterik sindromda və s. təyin olunur. Mayasarmaşığı qozasını qastritlərdə, qastroenteritlərdə, qaraciyərin və öd kisəsinin xəstəliklərində həzmi yaxşılaşdırmaq və iştahanı artırmaq üçün istifadə etmək olar. Mayaotu qozasından hazırlanmış tinkturadan yüksək qıcıqlanma, xüsusən cinsi həyəcanlanma, yuxusuzluq və pollyusiyaya (gecə şeytan aldatma) qarşı sakitləşdirici vasitə kimi istifadəsi çox yaxşı təsir göstərir. Belə problemi olanlara hər gün yatmazdan qabaq 1 - 2/3 stəkan ılıq mayaotu tinkturasını qurtum-qurtum içmək məsləhət görülür. Mayaotu ilə dolmuş yastıq yuxusuzluqla mübarizə üçün istifadə olunan ən qədim üsullardan biridir.

Qeyd edək ki, mayaotu dırmaşıcı gövdəli, çoxillik, ot xassəli bir bitkidir. Uzun saplı yarpaqları, incə və sərt, qırmızımtıl yaşıl rəngli gövdəsi vardır. Dişli çiçək vəziyyətləri, çiçəklər üzərindəki ifrazat tükləri və kökü istifadə edilir. Çiçəkləri acı maddələr, qatranlar, uçucu yağ və aşı maddə daxildir. Bu bitki, pivə emalında istifadə edilər. Vətəninin Şərq Aralıq dənizi ölkələri olduğu təxmin edilən bitki, ölkəmizin bəzi bölgəsində də yetişir. İyul-sentyabr aylarında çiçək açır.

**Şəymən**

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1770**



# Yayda ürəyi qorumağın yolları

## Mütəxəssislər təsirli vasitələri sadalayıb

**Yay ayları ürək xəstələri üçün təhlükəli dövr hesab olunur. Əlbəttə ki, səbəb havaların istiləşməsi, temperatur yüksəkliyidir. Havaların istiləşməsi qanın qatılaşmasına səbəb olur ki, bu da qan dövranını çətinləşdirir, ürəyin ritmini pozur, nəticədə infarkt təhlükəsi artır. Lakin təhlükə təkcə ürək xəstələri üçün deyil, ümumilikdə hamı üçündür.**

Havaların istiləşməsi hətta sağlam insanları təhlükə altında qoya bilər. İstilərdən qorunmağın, ən əsası da ürəyi qorumağın yollarını türkiyəli kardioloq, professor Ahmet Karabulut açıqlayıb. "Şərq" "NTV.com.tr"yə istinadən professorun tövsiyə etdiyi 12 qoruma vasitəsini təqdim edir. Professor ilk növbədə isti havalarda su qəbulunun artırılmasını tövsiyə edir. Yay aylarında isti hava səbəbiylə bədən su itkisinə məruz qalır. Bədəndə toplanmış su ehtiyatı tər vasitəsiylə xaric olur. Bunu nəzərə alaraq gün ərzində 10 stəkan adi, təbii su içilməsi məsləhətdir. Bol miqdarda su içmək qanda qatılığın qarşısını alır, nəfəs darlığı aradan qalxır, ürək döyüntülərini sakitləşdirir, ürək sakit ritmlə döyünür. İsti havalarda bol su qəbul etmək orqanizmin dirənişini artırır.

*(Davamı səh: 7-də)*

**Məlahət Rzayeva**

# Xərçəngdən ölümlərin sayı azaldılacaq

## Bayden planlarını açıqlayıb



**ABŞ prezidenti Co Bayden xərçəngdən ölüm hallarını əngəlləmək üçün planlarını açıqlayıb.**

Bakupost.az xəbər verir ki, ölkə satılan siqaretlərin tərkibindəki nikotin miqdarını asılılıq yaratmayacaq dərəcəyə endirəcək. Digər tütün məhsullarına da qadağa qoyulacağı bildirilib. Bu qaydalara tütün sənayesinin qarşı çıxması gözlənilir.

*Qeyd edək ki, siqaret ABŞ-də hər il 480 min insanın ölümündə başlıca səbəbdir. ABŞ Səhiyyə Nazirliyi yetkin aludəçilərin 87 faizinin 18 yaşında siqaret çəkməyə başladığını deyib. Bayden qarşıdakı 25 il ərzində xərçəng ölümlərini yarıya qədər azaltmağı planlayır.*



# 77 ildir şəxsiyyət vəsiqəsi yoxdur

## Kimsəsiz qalan Fatma nənə xəstəxanaya gedə bilmir

**1945-ci ildə Şanlıurfada anadan olan Fatma nənə doğulanda qeydiyyata alınmayıb. 1949-cu ildə yenidən Şanlıurfada Ramazan və Zeliha Yavuz cütlüyünün Əkrəm adlı uşaqları dünyaya gəlib.**

Əqli problemi olan körpə Əkrəmi atası Ramazan "Bu uşaq əsgərlik edə bilməz" deyərək qeydiyyata salmayıb. Fatma nənə 1975-ci ildə özü kimi şəxsiyyət vəsiqəsi olmayan həmyerlisi Əkrəmlə dini toy edərək ailə həyatı qurub. Cütlük daha sonra Şanlıurfadan köçərək Adanada məskunlaşıb. Cütlüyün uşaqları olmayıb. Tikintidə işləyən, əsgərliyə getməyən, səs verməyən, xəstələnəndə həkimə belə gedə bilməyən Əkrəm baba qocalanda da həyat yoldaşı ilə məhəllə bazarlarında çalışaraq çörəkpulu qazanmağa davam edib. Üstəlik, şəxsiyyət vəsiqəsi olmayan yaşlı cütlük həyatları boyu nə polis, nə də hərbçi tərəfindən saxlanılıb. Onlardan heç vaxt şəxsiyyət vəsiqələri tələb olunmayıb.

Məhəllədəki qonşuları tərəfindən tanınmasını tələb edən qoca 2019-cu ildə rayon qubernatorluğuna müraciət edib. Lakin ötən ilin noyabrında baba Əkrəm kimliyini bərpa edə bilmədiyinə görə ağciyər infeksiyasından dünyasını dəyişib.





Meyit şəxsiyyət vəsiqəsi olmadığı üçün bir müddət ailəsinə təhvil verilməsə də, sonradan məlum olub ki, baba Əkrəm şəxsiyyət vəsiqəsi üçün rayon valiliyinə müraciət edib. Bundan sonra icazə verilib və onun cənazəsi Mutlu qəbiristanlığında torpağa tapşırılıb.

Fatma nənə həyat yoldaşını itirəndən sonra tək qalıb. Qonşularının köməyi ilə birtəhər dolansa da yaşına görə həyatı çətinləşib.

Fatma nənə şəxsiyyət vəsiqəsi olmadığı üçün xəstəxanaya gedə bilmədiyini açıqlayıb: "Heç vaxt şəxsiyyət vəsiqəm olmayıb. Anamın, atamın və həyat yoldaşımın da şəxsiyyət vəsiqəsi yox idi. Kənddə əvvəllər şəxsiyyət vəsiqəsini istəyən yox idi, indi soruşurlar. Şəxsiyyət vəsiqəm olsaydı, cibimə qoyub həkimə gedərdim. Müalicə olunmaq istəyirəm".

Şəkər xəstəsi olduğunu deyən Fatma nənə gözyaşları içində taleyinin hökmü ilə baş-başa qalıb: "Şəkər xəstəliyi məni öldürür. 10 ildir ki, belə yola verirəm. Həkimin yanına getdim, şəxsiyyət vəsiqəsi istədi. Olmadığına görə baxmadı".

**Turan**

# "Avroviziya 2023" Ukraynada keçirilməyəcək



**Avropa Yayım Birliyi (EBU) "Avroviziya 2023"ün Ukraynada keçirilməyəcəyini bəyan edib.**

**Report xəbər verir ki, bu barədə qurumun saytındakı rəsmi məlumatda deyilir.**

**"EBU təşkilatçıların Ukraynanın yarışa ev sahibliyi etməkdən imtina etmək qərarı ilə bağlı ictimaiyyətin məyusluğunu tam başa düşür", - məlumatda deyilir.**

# Kasıb və varlıların beyinləri fərqlidir



**Kasıb və varlı insanlar təkcə yaşayış tərzləri və iqdisadi durumlarıyla fərqlənmir. Onların beyin quruluşu da fərqlidir.**

**Bu qənaətə Harvard Universitetinin və Massaçusets Texnologiya İnstitutunun neyrobioloqları gəlib. Onların araşdırmaları nəticəsində məlum olub ki, varlı uşaqlarda beyin qabığı görmə qavrayışına cavabdeh olan və düşünmədə iştirak edən yuxarı və yan hissələrdə daha qalındır. Bu zonalar uzunmüddətli yaddaşa da cavabdehdir. Tədqiqatçılar qeyd edir ki, bu, məktəb və universitetlərdə imkanlı uşaqların digərlərindən daha yaxşı dərs oxumasının səbəbi ola bilər.**

# Ronaldo "TikTok"da qəribə rəqslə debüt etdi



**Portuqaliya millisinin forvardı Kriştian Ronaldo sosial medianı fəth etməyə davam edir.**

**Artıq növbə "TikTok"a çatıb.**

**Oxu.az xəbər verir ki, 37 yaşlı futbolçu qardaşı qızı Alisia Beatris Aveyro ilə birlikdə rəqs edərkən görüntülənib. "Mançester Yunayted"in hücumçusu Alisia və oğlu kiçik Kriştianu ilə "Unroll, hit and play" mahnısı altında oynayıb.**

# Gəlinin sözləri eşidilmədi

## Qadın otbiçən maşını ilə qonşularının toyunu pozdu



**Qadın evin qarşısındakı ot biçməyə başlayıb və qonşuların toyunu pozub.**

**Milli.Az bildirir ki, kadrlarda bəylə gəlinin qonaqların iştirakı ilə mərasim keçirilməsi əks olunub. Nikah bağlama vaxtı gələndə qonşu otbiçən maşını işə salıb səsindən gəlinin sözləri eşidilməyib.**

**Qadının həmin gün mərasimi görməsinə və yəqin ki, əlavə səs-küyə ehtiyac olmadığını başa düşməsinə baxmayaraq, niyə ot biçmək qərarına gəldiyi məlum deyil. Yayımlanan videoda eqoist qonşuya Karen ləqəbi verilib (Karen xüsusi imtiyazlara malik olduğuna inanan və qalmaqal etməyi sevən ağdərili qadınların kollektiv obrazıdır).**

**Videoya 2000-ə yaxın şərh gəlib. "Bu, məkan üçün pul ödəmədiyiniz zaman dözməli olduğunuz bir şeydir. Qonşunun istədiyi vaxt biçmək hüququ var idi", - istifadəçilərdən biri yazıb.**



# Yeni tədqiqat aparılıb

## Yaşlılar videooyunlarla uşaqlardan daha çox məşğul olur

ABŞ-ın 215 milyondan çox sakini, yəni ölkə əhalisinin təqribən üçdə iki hissəsi müntəzəm olaraq videooyunlarla məşğul olur.

Azərtac xəbər verir ki, 2022-ci il üçün "Videooyunlar sənayesi haqqında əsas faktlara dair hesabat"ın müəllifləri bu qənaətə gəliblər.

Videooyun iştirakçılarının dörddə üç hissəsi yaşı 18-dən yuxarı olan şəxslərdir. Vaşinqtonda fəaliyyət göstərən və ABŞ-da videooyunlar sənayesinin müdafiəçisi kimi çıxış edən Əyləncəli Proqram Təminatı Assosiasiyasının sifarişi haqqında aparılmış tədqiqata dair hesabatdan məlum olur ki, hazırda videooyun iştirakçılarının orta yaşı 33-ə bərabərdir.

Ən populyar oyun platforması smartfondur. Respondentlərin 70 faizinin fikrincə, oyunlar üçün ən münasib qurğu məhz smartfondur. Sonrakı yerləri kompüterə qoşulan oyun qurğusu (52 faiz), fərdi kompüter (43 faiz), planşet/iPad (26 faiz)və virtual reallıq qarnituru (7 faiz) tutur. Respondentlərin təqribən 60 faizi bildirib ki, onlar bir neçə qurğuda oynamağı xoşlayırlar.

Yaşı 65-dən yuxarı olan oyunçuların əksəriyyəti (68 faiz) "beyinlərini işlətmək" üçün oynadıqlarını bildiriblər. Kişi respondentlərin üçdə iki hissəsi əylənmək (67 faiz) və vaxtını keçirmək üçün (66 faiz) oynayırlar. Respondent qadınların üçdə iki hissəsi vaxt keçirmək (70 faiz), habelə dincəlmək və istirahət etmək üçün (66 faiz) oynayır. Tədqiqat müəlliflərinin sözlərinə görə, daha bir maraqlı fakt ondan ibarətdir ki, oyunçuların 48 faizi qadınlar, 52 faizi kişilərdir. Bu o deməkdir ki, gender bölgüsü təqribən bərabərdir.

2022-ci il üçün "Videooyunlar sənayesi haqqında əsas faktlara dair hesabat"da həm oyunçuların kateqoriyaları, həm də onların videooyunlarla məşğul olmasının səbəbləri aşkar edilib.

Tədqiqatçıların sözlərinə görə, populyar səbəblər ondan ibarətdir ki, videooyunlar oyunçulara sevinc gətirir (93 faiz), onların zehni stimulyasiyasını təmin edir (91 faiz) və stresi aradan qaldırır (89 faiz).

# Dəniz qumu şübhəlini ələ verdi

## 40 yaşlı qadının qatili həbs olunub



**Türkiyənin Giresun bölgəsində yol kənarında meyiti tapılan qadının öldürüldüyü məlum olub. Hadisə ilə bağlı saxlanılan 2 nəfərdən biri həbs edilib, digəri isə sərbəst buraxılıb. Qətlin üstünü açan isə "dəniz qumu" olub.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Giresunun Görele rayonu Gültəpə kəndində vətəndaşlar yolun kənarında hərəkətsiz vəziyyətdə uzanan qadını görüblər.

Hadisə yerinə gedən qruplar qadının qırğız əsilli 40 yaşlı Keremet Nisanova olduğunu müəyyən ediblər. 3 uşaq anasının tapança ilə öldürüldüyü müəyyən edilib.

Qadının paltarında və cinayət yerində dəniz qumu olub. Halbuki, ən yaxın dəniz 7 kilometr uzaqlıqda idi.

Jandarma daha sonra sahildəki təhlükəsizlik kameralarını araşdırıb. Qətlin baş verdiyi gecə sahil zolağında dayanan avtomobillər təsbit edilib. Məlum olub ki, qadın sonuncu dəfə Tireboluda dəniz kənarında avtomobildə olub. Maşının sahibi Mətin Aydın qruplar tərəfindən həbs edilib. Ona kömək etdiyi iddia edilən şəxs də saxlanılıb. Kərəmət Nisanova ilə Mətin Aydın birlikdə yaşayıb, cütlüyün övladı da olub. Metin Aydın ifadəsində günahını etiraf edib. O, qətli qısqanclıq zəminində törətdiyini bildirib. Mətn Aydın həbs edilib. Aydına kömək etdiyi iddia edilən H. Ç. O isə prokurorluğa verdiyi ifadədən sonra sərbəst buraxılıb.

**Turan**

# Təyyarə ilə çox uçanlarda tromb yaranır

## Kardioloq xəbərdarlıq edir



**Təyyarədən çox istifadə edənlərdə uzun uçuşlar tromboz əmələ gəlməsini artırır.**

Bakupost.az xəbər verir ki, kardioloq Yuliya marşinçeva kimlərdə tromboz yarandığını açıqlayıb.

"Az gəzən, az hərəkət edən, maye az içən, varikoz problemi olanlarda tromboz riski yüksəkdir.

Tromboz infarkt, insult, ağciyər emboliyasına səbəb olur. Risk qrupunda 60 yaşdan yuxarı insanlardır, çünki onlarda qanın laxtalanma dərəcəsi dəfələrlə yüksəlir.

Eləcə də işi ilə bağlı təyyarədən çox istifadə edənlər, səyahəti sevənlərdə də tromboz yarana bilər. Çünki insan yerdən yüksəkdə quru hava şəraitində uzun müddət bir vəziyyətdə qalır.

Ona görə də uzun uçuşlardan öncə çox maye içmək, təyyarədə gəzişmək, ayaqları hərəkət etdirmək vacibdir. Təyyarədə çox uçanlar mütəmadi qan qatılığını yoxlatmalıdır.

Varikozu olan insanlar deformasiya olunmuş damarı vaxtında çıxarmalıdır ki, gələcəkdə o damardan qopan tromb insult, infarkta səbəb olmasın".